

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 08 (902) ■ 28 fevral 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# XOCALI SOYQIRIMI – insanlığın üzqarası...

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi...**



Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev yanında fəxri qarovul dəstəsi düzülmüş abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib. Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoyublar. Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak ediblər. Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzüblər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur.

Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

## Azərbaycan Prezidenti Mingəçevir şəhərində səfərdə olub

**Fevralın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mingəçevir şəhərinə səfər ediblər. Dövlətimizin başçısı və xanımı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət ediblər, önünə gül dəstələri qoyublar.**



Səfər çərçivəsində Prezident İlham Əliyev 424 MVt gücündə Mingəçevir Su Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak edib. Stansiyada görülən işlər barədə dövlətimizin başçısına məlumat verilərək bildirilib ki, son illərdə stansiyanın müasir tələblər səviyyəsinə çatdırılması və texniki cəhətdən müasirləşdirilməsi istiqamətində mühüm işlər görülüb, ümumi gücü 284 meqavatdan 424 meqavata çatdırılıb. Burada, həmçinin, müasir tələblərə cavab verən yeni inzibati bina inşa edilib, aşağı gərginlikli paylayıcı qurğular və sabit cərəyan avadanlıqları tamamilə dəyişdirilib. Suqəbuledici qurğuda 6 dəst sipər və onların hidravlik qaldırıcıları bütün avadanlığı ilə birlikdə yeni avtomatik tənzimlənən hidravlik qaldırıcılarla əvəz olunub.

Sonra dövlətimizin başçısı Mingəçevir şəhərinin içməli su təchizatı sisteminin istismara verilməsi mərasimində iştirak edib. Bildirilib ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində «Mingəçevir şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin icrasına 2011-ci ilin oktyabrında başlanıb. Dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilən layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Mingəçevir şəhərində 151 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Şəhəri içməli su ilə təmin etmək üçün mənbə olaraq Mingəçevir su anbarı seçilib və onun yaxınlığında müasir sutəmizləyici qurğunun inşası layihələndirilib. İlkin mərhələdə burada təbii şəraitdə durulan suyun təmizləyici qurğuya ötürülməsi məqsədilə göldən təmizləyici qurğuya diametri 800 millimetr olan borularla 720 metr uzunluğunda əsas daşıyıcı kəmər inşa edilib. Təmizləyici qurğunun yeri elə seçilib ki, göldə suyun səviyyəsi minimum həddə düşəcəyi halda da buradan qurğuya su özüaxımlı rejimdə ötürüləcək.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mingəçevir Sənaye Parkında «Mingəçevir Tekstil» MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışında, eləcə də «Open End» üsulu ilə iplik istehsalı müəssisəsinin işə salınması mərasimində iştirak ediblər. Daha sonra Mingəçevirdə «ASAN Həyat» kompleksinin açılışına qatılan dövlətimizin başçısına məlumat verilib ki, bu kompleks Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 13-cü mərkəzidir. Şəhərin Zərifə Əliyeva prospekti-2 ünvanında yerləşən və öz möhtəşəmliyi ilə seçilən kompleksin binasının tikintisinə 2017-ci ildə başlanılıb. İnşaat işləri 2018-ci ilin fevralında başa çatdırılıb. Kompleks üçmərtəbəli inzibati binadan və üç ictimai iaşə obyektindən ibarətdir. Kompleksin «ASAN xidmət» mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcək. Mərkəzdə çalışacaq əməkdaşların sayı 154, könüllülərin sayı isə 45 nəfərdir. Bu mərkəz Mingəçevir şəhərinə, Yevlax və Ağdaş rayonlarında qeydiyyatda olan 337 min 767 vətəndaşa xidmət göstərəcək.

Mingəçevir «ASAN Həyat» konsepsiyası Mingəçevir «ASAN xidmət» mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsini də nəzərdə tutur. Belə ki, vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «ASAN Həyat» kompleksinə daxil olan «ASAN Peşə»nin fəaliyyəti ilə də tanış olublar.

## Azərbaycan Prezidenti Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı Prezident R.T.Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyə xalqının firavanlığı naminə prezidentlik fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı nəticəsində günahsız insanların ermənilər tərəfindən qətlə yetirilməsini bir daha pisləyib, bu faciə ilə bağlı Azərbaycan Prezidentinə və xalqımıza başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib. Söhbət zamanı prezidentlər ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

## Rəsmi xronika

■ Prezident İlham Əliyev fevralın 25-də Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı Azərbaycanda yəhudi icmasının nümayəndələri üçün çox yaxşı şəraitin yaradıldığını qeyd edən qonaq bunun digər ölkələrə də nümunə olduğunu vurğulayıb. Prezident İlham Əliyev ölkəmizdə digər xalqların və icmaların nümayəndələri kimi yəhudi icmasının nümayəndələrinin də azad və firavanlıq şəraitində yaşaması üçün hər cür şəraitin təmin edildiyini bildirib.

■ Dövlətimizin başçısı fevralın 23-də «Boeing Commmercial Airplanes» şirkətinin prezidenti və baş icraçı direktoru Kevin Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycan ilə «Boing» şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini və bu şirkətin istehsal etdiyi 20-yə yaxın təyyarənin Azərbaycan mülki aviasiyası tərəfindən alındığını vurğulayan Prezident İlham Əliyev ölkəmizin hazırda çox müasir və keyfiyyətli hava donanmasına malik olduğunu qeyd edib. Azərbaycanla əməkdaşlıqdan böyük məmnunluq hissi duyduğunu deyən qonaq ölkəmizlə çox güclü əməkdaşlığın həyata keçirildiyini vurğulayıb, Azərbaycanın gələcək inkişafına böyük inamla yanaşdıqlarını bildirib.

Vergilər naziri Şirvanda vətəndaşları qəbul edib
səh. 2

İslahatların təməlində şəffaflıq və qarşılıqlı etimad dayanır
səh. 3

Əmək fəaliyyətinin rəsmiləşdirilməsi üçün yeni imkanlar yaradılır
səh. 4

«Made in Azerbaijan» brendinin şöhrəti günü-gündən artır
səh. 5

# Vergilər naziri Şirvanda vətəndaşları qəbul edib



Fevralın 27-də vergilər naziri Mikayıl Cabbarov Şirvan şəhərində 5 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşlarla görüşüb. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun keçirilmiş görüşdə Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad və Saatlı rayon sakinləri iştirak ediblər. Vətəndaşlar, əsasən, vergi orqanlarına işə qəbul, strukturlarda iş yerlərinin dəyişdirilməsi və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Vergilər Nazirliyinin yerli vergi orqanlarının rəhbərliyinin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

# Vergilər Nazirliyində görüşlər

■ Fevralın 21-də vergilər naziri Mikayıl Cabbarov Efiopiya Federativ Demokratik Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ayalev Qobezie Vorknehlə görüşüb.

Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin gücləndirilməsi və genişləndirilməsi perspektivləri, eləcə də ticarət dövriyyəsinin artırılması yolları ətrafında fikir mübadiləsi aparılıb. Söhbət zamanı Vergilər Nazirliyi ilə Efiopiyanın vergi orqanı arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələləri və bu xüsusda yüksək səviyyəli qarşılıqlı səfərlərin vacibliyi qeyd olunub.

■ Fevralın 23-də vergilər naziri Mikayıl Cabbarov Qətər dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Yusif bin Həsən əl-Sainlə görüşüb.

Görüşdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsində dövlət başçılarının qarşılıqlı rəsmi səfərlərinin mühüm əhəmiyyəti qeyd edilib, Azərbaycan Respublikası ilə Qətər dövləti arasında əlaqələrin bütün sahələr üzrə inkişafının vacibliyi vurğulanıb.

Söhbət zamanı Qətər şirkətlərinin Azərbaycandakı fəaliyyətindən məmnunluq ifadə edilib və qarşılıqlı sərmayələrin genişləndirilməsinin hər iki ölkənin maraqlarına uyğun olduğu qeyd edilib.

# Sahibkarlar üçün seminarlar keçirilib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) sahibkarların ölkədə uğurla həyata keçirilən islahatlar barədə məlumatlandırılması üçün son bir həftə ərzində 10-dək seminar keçirilib.

Seminarlarda vahid onlayn ixrac ərizəsi, gömrükdə yaşıl dəhliz, elektron məhkəmənin iqtisadi mühitin yaxşılaşdırılmasında töhfəsi, kredit büroları, daşınar əmlakın yüklülüyü, daşınmaz əmlakın qeydiyyatı, tikintiyə icazələrin alınması, elektrik şəbəkəsinə qoşulma və s. mövzularda müzakirələr təşkil olunub. Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Maliyyə Bazarlarına Nəzarət Palatası, «Azexport.az» və digər dövlət qurumlarının nümayəndələrinin iştirak etdikləri seminarlarda yüzlərlə Azərbaycan sahibkarı iştirak edib və onların iqtisadi islahatlarla bağlı sualları cavablandırılıb. Tədbirlərdə bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycan hazırda Avropa və Mərkəzi Asiyada ən islahatçı ölkə kimi qiymətləndirilir.

# Qeyri-rəsmi məşğulluqla mübarizə tədbirləri gücləndirilir

**Prezident İlham Əliyevin 2017-ci il 9 oktyabr tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı» təsdiq edilib.**

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası tərəfindən indiyədək bu sahədə əmək münasibətlərinin tənzimlənməsi, işəgötürən-işçi əməkdaşlığının rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və s. sahələrdə mühüm tədbirlər həyata keçirilib.

Bu ilin yanvar ayında Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Bakı şəhərində və Şamaxı rayonunda dörd müəssisədə («Grand Hospital», Rəhman Firuz oğlu Kərimova məxsus ərzaq mağazası, Saleh Mirabas oğlu Zəkiyevə məxsus mağaza, «İmplant Art Dental Klinika») qeyri-rəsmi məşğulluqla mübarizə çərçivəsində yoxlamalar aparılıb və bir sıra qanun pozuntuları aşkar edilib. Həmin müəssisələr ümumilikdə 99 min manat məbləğində cərimə olunub.

Bakı şəhərində və Şamaxı rayonunda aparılmış vergi nəzarəti tədbirləri zamanı qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqavilələri hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən 99 nəfərin muzdla işə cəlb olunduğu aşkar edilib: bunlardan 93 nəfəri Bakı şəhərində fəaliyyət göstərən müəssisələrin, o cümlədən 90 nəfəri «Grand Hospital» tibb müəssisəsinin, 3 nəfəri digər müəssisələrin, 6 nəfəri isə Şamaxı rayonunda fəaliyyət göstərən Rəhman Firuz oğlu Kərimova məxsus ərzaq mağazasının payına düşür.

Yoxlama aparılmış dörd müəssisədə 106 nəfər əmək müqaviləsi ilə çalışıb. Əmək müqaviləsi olmadan işləyən qalan 99 nəfər işçidən (bunlardan 92 nəfərin əsas fəaliyyət növü əhaliyə səhiyyə xidmətlərinin göstərilməsi, 7 nəfərininki isə ticarət xidməti (mağazalarda satış) olub) 31-i ilə əmək münasibətləri rəsmiləşdirilib, onların adı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə (ƏMBEİS) daxil edilib.

Qeyd olunub ki, əsas vəzifəsi vətəndaşlarımızın sağlamlığına xidmət etmək olan bəzi özəl klinika və xəstəxanalarda belə halların baş verməsi yolverilməz və qəbuledilməzdir. Bundan əlavə, yanvar ayı ərzində Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən də Bakı şəhəri üzrə ümumilikdə 10 tikinti obyektində («MVVL Verus Praedium» Mənzil Tikinti Kooperativi, «Babək-94» Müstəqil Kiçik Müəssisəsi, «TTF-A» MMC, «Laura» Firması, «Kaspian Park» MMC, «Evian Konstruksiya» MMC, «Piramida-F.R.» MMC, «Gözəl Bakı» Mənzil-Tikinti Kooperativi, eləcə də fərdi xidmətlər göstərən Azər Rəfail oğlu Xəlilov) 6 səyyar monitorinq keçirilib və 70 nəfər işçinin əmək müqaviləsi olmadan çalışdığı aşkar edilib. Yoxlama tədbirlərindən öncə həmin müəssisələrdə əmək müqaviləsi ilə 791 işçi çalışdığı halda, yoxlama nəticəsində 184 nəfərlə əmək müqaviləsi bağlanılıb və müqavilə ilə işəyənlərin sayı 975-ə çatıb.

Yanvar ayı ərzində ölkə üzrə 64 min 140 əmək müqaviləsi rəsmiləşdirilib, 50 min 475 müqaviləyə isə xitam verilib. Beləliklə, bağlanılmış əmək müqavilələrinin sayındakı artım 13 min 665-ə çatıb.

> Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə, işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.
>
> İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan üç min manatadək miqdarda, vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir.
>
> Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yeddi min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə, üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Cinayət Məcəlləsinin 162-1-ci maddəsinin «Qeyd» hissəsinə əsasən, həmin maddədə «xeyli sayda» dedikdə, on nəfər və ondan çox olan işçilərin sayı nəzərdə tutulur.

Əmək haqlarının leqallaşdırılması, ilk növbədə, vətəndaşların sosial maraqlarının təmin olunmasına yönəldilib və vətəndaşlar işəgötürənlər tərəfindən onlara ödənilən qeyri-rəsmi əməkhaqqı ilə razılaşmaqla özlərini gələcəkdə dövlətin sosial təminatından məhrum etmiş olurlar. Əməkhaqqını qeyri-rəsmi alan işçilər ödənişli məzuniyyət haqqının, xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə ödənilməməsi ilə rastlaşır, güzəştli ipoteka və digər kreditləri almaq hüququndan və ən əsası, gələcəkdə layiqli pensiya təminatından məhrum olurlar.

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və yalnız rəsmi əməkhaqqı ödəməyi tələb etməklə hər bir vətəndaş özünün firavan gələcəyini indidən düşünmüş olur. Unutmayın ki, sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlini qoyur.

# Vergi güzəştləri sahibkarlığın və bütövlükdə iqtisadiyyatın inkişafına xidmət etməlidir

*Vergi sistemində aparılan islahatların əsas prioritetlərindən biri vergi güzəşti və azadolmalarının ünvanlı olmasıdır*

Bir neçə ildir ki, Azərbaycanda tətbiq olunan vergi güzəştləri öz məqsədlərinə görə iki qrupa bölünür. Birinci qrup güzəştlər sosial məqsəd daşıyaraq vergi ödəyicilərinin maddi vəziyyətinin yaxşılaşdırılmasını əhatə edir. İkinci qrupa isə iqtisadiyyatda stimullaşdırıcı əhəmiyyət daşıyan güzəştlər aid edilir. Birinci qrup güzəştlərə son illərdə tələbələrin, əlillərin və əhalinin digər aztəminatlı təbəqələrinin, digər sosial qrupların gəlirlərinin vergidən azad olunması, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsinin 30%-dən 25%-ə, aylıq və illik gəlirlərin 14% dərəcəsi ilə vergiyə cəlb edilən məbləğin müvafiq olaraq 2000 manatdan 2500 manata və 24.000 manatdan 30.000 manatadək qaldırılmasını göstərmək olar. Bununla yanaşı, əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğlərinin 2 dəfəyədək artırılması, 2016-cı il yanvarın 1-dən fiziki şəxslərin aylıq əməkhaqqından tutulan gəlir vergisi üzrə güzəştləri də qeyd etmək mümkündür.

### Vergi güzəştləri iqtisadi fəaliyyətin inkişafına yönəldilməlidir

İqtisad elmləri üzrə fəlsəfə doktoru İsa Məmmədov hesab edir ki, vergi güzəştlərinin başlıca istiqaməti iqtisadi sahəni əhatə etməklə stimullaşdırıcı xarakter daşıyır və hər hansı bir sektorun, iqtisadi fəaliyyət növünün inkişafının təmin edilməsinə yönəldilir. Bu cür güzəştlər kiçik və orta sahibkarlığın inkişafına, innovativ texnologiyaların tətbiqinə, rəqabətqabiliyyətli ixrac sahələrinin stimullaşdırılmasına xidmət edir: «Məsələn, kənd təsərrüfatı sektoru üzrə vergi güzəştlərinin tətbiqi aqrar sektorda çalışan sahibkarların istehsal imkanlarının artımında mühüm rol oynayır. Vergi güzəşti sayəsində kənd təsərrüfatı sahəsində dövlət tərəfindən təxminən hər il 130-140 milyon manat vəsaitin istehsalçıda qalmasına şərait yaradılır. Həmin vəsait kənd təsərrüfatı istehsalçıları üçün əlavə maliyyə və investisiya mənbəyini təşkil edir, həmin sərmayənin təkrar istehsala yönəldilməsi isə iqtisadi artımda mühüm rol oynayır. Amma dövlət sənaye, emal, ticarət və digər fəaliyyət sahələrində rentabelliyin tam təmin olunduğu, müəssisələrin iqtisadi potensialının artdığı və rəqabətədavamlı məhsul istehsal edildiyi və sektorun bazarda öz mövqeyini möhkəmləndirdiyi halda, vergi güzəştlərini dayandırır».

### Sui-istifadə halları güzəştlərin «itirilməsinə» səbəb olur

Vergi güzəştləri ilə əlaqədar aparılan araşdırma və təhlillər göstərir ki, güzəştlər heç də həmişə iqtisadi inkişafı, ictimai və dövlət maraqlarını gözlənilən səviyyədə təmin etmir. Bəzən güzəştlərdən sui-istifadə hallarına rast gəlinir. Vergi güzəştlərinin «itirilməsi» onun ünvanlı olmamasından, vergitutmanın ədalətlilik prinsipinin pozulmasından və güzəştdən təyinatı üzrə istifadə edilməməsindən yaranır. Bir sıra hallarda güzəştlər istehsalçı və yaxud ixracatçı şəxslərin sadəcə maddi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarır, ölkənin əsas istehlakçıları, aztəminatlı təbəqələr və dövlət bundan fayda görmür. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalı vergidən azad edildiyi üçün emalla məşğul olan sahibkarlar da istehsal təyinatı adı altında vergidən yayınırdılar. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcələsinə edilmiş əlavə dəyişikliklərdən sonra həmin məsələ ilə bağlı konkretlilik təmin olundu və kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan sahibkarlar bir ildən artıqdır ki, qanunla müəyyən edilmiş vergiləri ödəyirlər. Bundan başqa, bir sıra hallarda investisiya məqsədləri üçün tətbiq edilən vergi güzəştləri təyinatı üzrə istifadə olunmur. Təhlillər göstərir ki, bəzən həmin güzəştlər nəticəsində əldə edilən dövriyyə vəsaitinin təxminən 60%-dən çoxu başqa məqsədlərə yönəldilir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin güzəşt və azadolmaların həcmini müəyyən etmək məqsədilə 2012-2016-cı illər üzrə vergi ödəyiciləri tərəfindən vergi orqanlarına təqdim edilmiş vergi bəyannamələri və onların əlavələrinə dair apardığı təhlillər təsdiqləyir ki, güzəşt və azadolmalardan istifadə edən vergi ödəyicilərinin sayında 6% artım olub.

### Güzəştlər uçot və vergi hesabatlılığının ləğvinə gətirib çıxarmamalıdır

Vergi güzəştlərinin səmərəliliyinin azalması vergi inzibatçılığı ilə bağlı yeni islahatların aparıldığı şəraitdə həmin məsələyə yenidən baxılması zərurətini yaradır. Vergilər naziri Mikayıl Cabbarov vergi güzəştləri və azadolmalarla bağlı hər bir hal üçün konkret fərdi yanaşman metodunun tətbiqini zəruri hesab edir: «Vergi güzəştləri xüsusi əhəmiyyət kəsb edən sahələr üçün lazımdır. Məsələn, kənd təsərrüfatı sahəsində əldə olunmuş nəticələri çox müsbət dəyərləndiririk. Ölkə iqtisadiyyatının strukturunda ənənəvi yer tutan kənd təsərrüfatına tətbiq edilən güzəştlər kənd əhalisinin özüməşğulluğu üçün zəruri şərait yaradıb, bu sahənin modernləşdirilməsinə təkan verib.

Amma qeyd etməliyəm ki, burada ümumi bir prinsip olmalıdır - vergi güzəştləri və azadolmalar həmin sahə üzrə uçot və vergi hesabatlılığının ləğvinə gətirib çıxarmamalıdır. Əfsuslar olsun ki, indi bu belədir. Bəzən vergi güzəşti hesabatın aparılmasından azadolma kimi qəbul edilir. Bu cür yanaşma nə biznesə, nə sahibkara, nədə muzdlu işçiyə kömək edir. Dövlət bu və ya digər sahənin dirçəldilməsinə kömək etmək, onun regional və beynəlxalq səviyyədə rəqabətədavamlı olmaq məqsədilə öz büdcə gəlirlərindən imtina edir. Lakin dövlətin etibarlı informasiyaya istinad etməklə gördüyü tədbirlərin effektini, səmərəsini qiymətləndirmək imkanı olmalıdır».

İqtisadçı Zaur Əliyev hesab edir ki, vergi güzəştləri indiki şəraitdə əsas etibarilə kiçik və orta sahibkarlığın həvəsləndirilməsinə və fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət etməlidir: «Hazırda unun və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad olunub. Kənd təsərrüfatı istehsalçıları 2019-cu il yanvarın 1-dək vergi güzəştlərindən isatifadə edəcəklər. Ünvanlı güzəştlərin tətbiqi vacibdir və davam etdirilməlidir. Eləcə də strateji yol xəritələrində kiçik və orta sahibkarlıq sahəsində nəzərdə tutulan stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsinə, müxtəlif səmərələşdirici və stimullaşdırıcı addımların atılmasına ehtiyac var. Bunumla bağlı müvafiq vergi güzəştlərinin tətbiqi məqsədəuyğundur.

Amma bəzi iri sahibkarlıq subyektlərində, kifayət qədər rentabelli və mənfəətlə işləyən emal, sənaye bölmələrində, ixrac, logistika və daşınma sahələrində tətbiq olunan azadolmalar və güzəştlərə yenidən baxılması labüddür».

> **Beynəlxalq təcrübədən də göründüyü kimi, vergi güzəşti və azadolmaları müəyyən dövr üçün həmin sahənin «ayağa qaldırılmasına» və inkişaf etdirilməsinə kömək məqsədilə tətbiq olunur**

### Güzəşt və azadolmalar sahibkarları arxayınlaşdırmamalıdır

Maliyyə naziri Samir Şərifov bildirib ki, ölkədə həyata keçirilən büdcə-fiskal siyasətin əsas hədəflərindən biri iqtisadi səmərəlilik baxımından vergi-gömrük rejiminin təkmilləşdirilməsidir. Bu siyasətə uyğun olaraq, bəzi sahələrdə vergi və gömrük güzəştlərinə yenidən baxmaq və onları məhdudlaşdırmaq, bəzi hallarda isə ləğv etmək planlaşdırılır. Bununla yanaşı, hökumət bir sıra sahələrdə vergi dərəcələrinin optimallaşdırılmasını, sadələşdirilməsini zəruri hesab edir. Nazirin sözlərinə görə, nəzərdə tutulan hədəflərin gerçəkləşdirilməsi sahibkarlığın inkişafına əlavə təkan verəcək və nəticədə dövlət büdcəsinin gəlirlərinin artmasına gətirib çıxaracaq.

«Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da vergi güzəşti və azadolmalarının monitorinqinin aparılması və onların səmərəliliyinin müəyyən edilməsi nəzərdə tutulub. Beynəlxalq təcrübədən də göründüyü kimi, vergi güzəşti və azadolmaları müəyyən dövr üçün həmin sahənin «ayağa qaldırılmasına» və inkişaf etdirilməsinə kömək məqsədilə tətbiq olunur. Yəni bu güzəştlər daimi deyil və müəssisənin normal gəlir əldə etmək imkanları yarandıqdan sonra dayandırılır. Ona görə də sahibkarlar güzəşt tətbiq olunduğu dövrdə yaradılmış bu fürsətdən səmərəli şəkildə yararlanmalı, istehsal və xidmət sahələrini genişləndirməli, vergi güzəşti sayəsində əldə etdikləri vəsaitləri investisiya mənbəyi kimi təkrar dövriyyəyə yönəltməlidirlər.

**E. CƏFƏRLİ**

# İslahatların təməlində şəffaflıq və qarşılıqlı etimad dayanır

Vergilər Nazirliyi vergi ödəyicilərinə müraciət edərək bildirib ki, vergi sistemində şəffaflığın təmin edilməsinə, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsinə yönəldilmiş islahatlar ödəyicilərin də öz öhdəliklərinə qanunauyğun yanaşmasını tələb edir. Şəffaflıq yalnız vergi orqanlarının fəaliyyətini deyil, həm də vergi ödəyicilərinin öz öhdəliklərinə düzgün yanaşmasını əhatə etməlidir. Vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyici vergi orqanlarının etibarlı tərəfdaşı olacaq və belə olan halda, onlara daim dəstək göstəriləcəkdir. Vergi hesabatına bilərəkdən saxta məlumatları daxil edənlər və vergidən yayınmağa cəhd göstərənlər isə qanun qarşısında cavab verəcək, onlarla qanunun müəyyən etdiyi çərçivədə davranılacaqdır.

Sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistem, vergi ödəyicilərinə göstərilən xidmətlər ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun qaydada təkmilləşdiriləcəkdir.

Vergilər Nazirliyi tərəfindən «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda keçirilmiş konfransda vergilər naziri Mikayıl Cabbarov vurğulayıb ki, artıq mövcud Vergi Məcəlləsi əsasında islahatlar paketinin hazırlanmasına başlanılıb. Bütün şirkətlərdən, biznes nümayəndələrindən və assosiasiyaların təmsilçilərindən xahiş olunub ki, öz rəy və təkliflərini mart ayının 31-dək Vergilər Nazirliyinə təqdim etsinlər.

Konfrans iştirakçıları bu çağırışa cavab olaraq öz təəssüratlarını, rəy və təkliflərini bölüşürlər.

***Əliməmməd Nuriyev, «Konstitusiya Araşdırmalar Fondu»nun rəhbəri:*** «Vergi sahəsində başlanmış yeni islahatlar kursu indiyə qədər yaranmış problemlərin köklü həllinə, vergi inzibatçılığının ən müasir formada təşkilinə imkan verəcək. «Vergilər. Şəffaflıq. İnkişaf» konfransında yeni islahatlar baxımından əhəmiyyət kəsb edən məsələlər haqqında danışıldı. Vergilər naziri Mikayıl Cabbarovun mesajları vergi sistemində yeniliklərin başlanması və bu sistemə yanaşmanın dəyişməsi baxımından çox əhəmiyyətlidir. Vergi siyasətinin prioritetlərinin müəyyənləşdirilməsi, sahibkarlara münasibətin ən sivil formasının tapılması, vergi ödəyicisi ilə vergi orqanı arasında inam və etimadın yüksəldilməsi üçün uğurlu strategiyanın əsası qoyulur. Bu onu göstərir ki, həm vergi orqanları ilə sahibkarlar arasında münasibətlərin yeni müstəvidə qurulması, həm də vergi inzibatçılığının təkmilləşdirilməsi və bu istiqamətdə müasir innovativ meyarların tətbiqi baxımından yeni mərhələ başlanmaqdadır. Eyni zamanda, qanunvericilikdə bəzi boşluqların aradan qaldırılması, vergi qanunvericiliyində sabitliyin təyin edilməsi, Vergi Məcəlləsinin yeni redaksiyasının hazırlanması bütün tərəflər üçün gələcəkdə faydalı fəaliyyət üçün yaxşı fürsət deməkdir. İnanıram ki, qanunvericiliyə dəyişikliklər zamanı sahibkarların fikir və təkliflərinə geniş yer veriləcək, onların fəaliyyətini stimullaşdıran rasional müasir mexanizmin qurulması təmin olunacaq.

Hesab edirəm ki, «Açıq hökumət» prinsiplərinə uyğun olaraq, vətəndaşların hər bir dövlət orqanı, o cümlədən Vergilər Nazirliyindən informasiya əldə etmək imkanları artırılmalı, ictimai iştirakçılıq meyarları müəyyənləşdirilməlidir. Fikrimcə, müasir rasional əməkdaşlıq üçün yaxşı fürsət yaranıb».

---

***Vilayət Vəliyev, İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru:*** «Səmərəli vergi siyasəti ilə bağlı aparılan islahatlar investisiya mühitinin yaxşılaşdırılmasına, vergi yükünün azaldılmasına və vergilərin optimallaşdırılmasına xidmət etməlidir. Vergi islahatları hər bir ölkənin iqtisadi inkişafına və qarşıya çıxan zəruri sosial-iqtisadi proseslərə uyğun olaraq həyata keçirilir. Azərbaycanda müxtəlif zamanlarda iqtisadi inkişafa töhfə vermək və biznesin fəaliyyətini stimullaşdırmaq məqsədilə vergi islahatları aparılıb. Hazırda vergi sistemində yeni islahatlara keçidin şahidi oluruq. İnanıram ki, islahatlar biznes üçün əlavə imkanların yaradılmasına, orta və kiçik biznesin inkişafına, müasir vergi sisteminin dinamikliyinə səbəb olacaq.

Fürsətdən istifadə edərək, biznes icmasının üzvü kimi, bəzi fikirlərimi diqqətə çatdırardım. Vergi sisteminin normativ-hüquqi bazası ölkədə müasir çağırışlara cavab verən innovativ biznesin inkişaf meyarlarına uyğunlaşdırılmalıdır. Vergi ödəyicilərinin fəaliyyəti üçün münbit şəraitin yaradılması, iş adamlarının hüquqlarının maksimum qorunması, sahibkarlıq və investisiya fəallığının stimullaşdırılması vacibdir. İslahatlar əsas etibarilə kiçik və orta sahibkarlığa dəstək tədbirlərinin artırılması məqsədilə qanunvericilikdə daha optimal vergi siyasətinin həyata keçirilməsinə yönəldilməlidir. Vergi qanunvericiliyinə əməl edilməsinin praktiki cəhətdən rahat olması və minimum inzibati xərclər cəlb etməsi üçün müvafiq şəraitin yaradılması da yeni islahatlar çərçivəsində nəzərə alınmalıdır. Biznes sektorunun vergi islahatlarından gözləntiləri böyükdür və ümid edirik ki, bu islahatlar tezliklə ölkə iqtisadiyyatına öz töhfəsini verməklə, ümumilikdə dövlətimizin daha da inkişafı baxımından mühüm nailiyyətlərin əldə olunmasında aparıcı rol oynayacaqdır».

---

***Vüqar Zeynalov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti:*** «Son zamanlar vergi sistemində bəzi xoşagəlməz tendensiyalara rast gəlinirdi, özəl biznesə qarşı müasir tələblərə cavab verməyən metodların tətbiqi barədə şikayətlər daxil olurdu. Bəzi sahibkarlar arasında ayrı-seçkiliyin olması, müxtəlif biznes qurumlarında ədalətliliyin pozulması halları barədə fikirlər səsləndirilirdi. Xüsusilə də yoxlamaların aparılması zamanı ödəyicilərin hüquqlarının pozulması barədə narazılıqlar bildirilirdi. İnanıram ki, bu cür hallar aradan götürüləcək, vergi ödəyicələrinin hüquqları qanunun tələbləri səviyyəsində qorunacaq.

Təbii ki, vergi orqanı ilə vergi ödəyicisi arasında sağlam münasibətlər olmayan yerdə partnyorluqdan söhbət gedə bilməz. Dövlət-sahibkar münasibətlərində əsas şərt qarşılıqlı etimadın artırılmasına nail olmaqdır. Vergilər nazirinin konfransda vurğuladığı bir fikrə qayıtmaq istərdim ki, nazirlik sahibkarlarla müasir tərəfdaşlıq prinsipi əsasında işləyəcək, onlarla ən yaxşı partnyorluq əlaqələri quracaq. Bununla yanaşı, əsas şərtlərdən biri vergi ödəyicilərinin vicdanlı olması, dövlətin vergilərini vaxtında ödəməsidir. Yalnız belə olan halda, əsl partnyorluq münasibətlərindən söhbət gedə bilər».

---

***Ruslan Atakişiyev, «İqtisadi Resursların Öyrənilməsi» İctimai Birliyinin sədri:*** «Vergi islahatları çərçivəsində yoxlamaların konkretliliyinin təmin edilməsi, səmərəli vergi nəzarəti mexanizmlərinin qurulması vacib şərtdir. Yoxlamaların azaldılması məqsədəuyğundur və bu istiqamətdə müsbət addımların atıldığını görmək olar. Vergi yoxlamalarının məsafədən, vergi risklərinin idarə edilməsi sistemi kimi innovativ alətlərin tətbiqi ilə həyata keçirilməsi yönündə faydalı işlər aparılır. Burada əsas hədəf sahibkarlıq subyektlərində uçot və sənədləşmə işinin təkmilləşdirilməsi və könüllü ödəmə mədəniyyətinin formalaşdırılmasıdır. Hesab edirik ki, yoxlama sahibkarlıq subyektlərinə görə diferensial olmalı, sahibkarın yeni fəaliyyətə başlaması, onun fəaliyyətinin kiçik, orta və iri olması, çalışdığı sahənin prioritetliyi, yaşı, sosial vəziyyəti və s. nəzərə alınmalıdır.

Hesab edirəm ki, müəyyən mallar, xidmətlər və ya işlər üzrə ƏDV-nin daha aşağı dərəcələrlə tətbiq edilməsi üzrə dəyişikliklər mütərəqqi addım olar. Zəruri istehlak məhsullarına və səhiyyə xidmətlərinə daha aşağı ƏDV dərəcəsinin tətbiqi, nəticədə son istehlakçıların maraqlarına xidmət edə bilər. Beynəlxalq təcrübədə qəbul edilmiş «ƏDV-nin neytrallığı» prinsipinə görə, ƏDV-nin iqtisadi ödəyiciləri son istehlakçı olduğundan, bu sahədə vergi yükü biznes üzərinə düşməməlidir. Lakin mövcud qanunvericilikdə hesablanan və ödənilən ƏDV məbləğləri üzrə vergi tutulan əməliyyatın aparıldığı vaxtlara münasibətdə fərqli yanaşma mövcuddur. Hesablanan ƏDV məbləğinə münasibətdə «kvazi-kassa metodu», ödənilən ƏDV-yə münasibətdə isə «hesablama metodu» tətbiq olunur. Beləliklə, hesablanan və ödənilən ƏDV əməliyyatlarına münasibətdə fərqli vergitutma tətbiq edilməsi ƏDV-nin neytrallığının təmin olunmaması, yəni vergi yükünün biznes üzərinə düşməsi və təsərrüfat subyektlərində nağd vəsait çatışmazlığı məsələlərini aktuallaşdırır».

---

***Arif Həsənov, «NEON» firmasının rəhbəri:*** «Yeni islahatlar kursu sahibkarlığın inkişafı üçün çox faydalıdır, bununla yanaşı, bir sıra həllivacib məsələlərin də islahatlarla bağlı yeni hazırlanan tədbirlər planında nəzərə alınması arzuolunandır. Təklif edirəm ki, sahibkarlığa dəstək məqsədilə çörəkbişirmə sənayesində bəzi güzəştlər tətbiq olunsun, çörək satışı ilə digər mallar, məsələn, tütün və alkoqollu içkilərin satışı zamanı təbiq olunan ƏDV-nin dərəcəsi fərqəndirilsin. Orta və kiçik sahibkarlığı stimullaşdırmaq üçün vergiqoyma mexanizminin təkmilləşdirilməsi, istehsal, tədarük, xidmət bölmələri üzrə müxtəlif dərəcə ilə vergi hesablanması, emal-tədarük və satış üzrə ƏDV-nin fərqli meyarlarının tətbiq olunması kimi məsələlərə yenidən baxılmasını zəruri hesab edirəm. Bundan başqa, məncə, bəyannamə formalarının sadələşdirilməsinə və təqdimolunma prosedurlarının da təkmilləşdirilməsinə ehtiyac var»...

***Hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Günümüzün reallığı: rəqəmsal marketinq

**«Hootsuite» və «We Are Social» mərkəzinin hesabatına əsasən, keçən il Azərbaycanda internet istifadəçilərinin sayı 2016-cı illə müqayisədə 3%, sosial media istifadəçilərinin sayı isə 29% artıb.**
**Ölkədə aktiv olan mobil cihazların sayı 11 milyondan çoxdur. Son bir ildə 1 milyona yaxın yeni mobil cihazdan istifadə olunmağa başlanılıb.**
**İnternetin 39%-i kompüter və noutbuk, 59%-i mobil telefon, qalan hissəsi isə planşet və digər cihazlar vasitəsilə istifadə edilib. Son bir ildə kompüter və noutbukda istifadə olunan internetin həcmi 15% azalıb, smartfonlarda isə 15% artıb.**
**Ölkədə bank (kredit) kartı olanların sayı ümumi əhalinin 9%-ni təşkil edir. Əhalinin 4%-i onlayn ödəniş edir.**

Önümüzdəki 10 il ərzində rəqəmsal ticarət sektorunun sürətli inkişafı gözlənilir ki, bu da bizim hər birimizdən rəqəmsal iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən rəqəmsal ticarət haqqında müəyyən bilik və bacarıqlara sahib olmağı tələb edir.

Rəqəmsal (digital) ticarət TV, radio, qəzet-jurnal kimi mediadan uzaq yöntəmlərdə, markanı və işi dəstəkləmək və tanıtmaq amalıyla internet, mobil və digər interaktiv platformalardan istifadə etməkdir. Bunu interaktiv ticarət, onlayn ticarət, e-marketinq və veb ticarət də adlandırırlar. Rəqəmsal ticarət təməl olaraq 4 addımdan ibarətdir: əldə et, qazan, ölç və sahib çıx.

Marketinq üzrə ekspert, «İdeArt» MMC-nin baş direktoru Elgün Namazlının sözlərinə görə, bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da şirkətlər rəqabətə davam gətirmək üçün öz marketinq strategiyalarını düzgün idarə etmək məcburiyyətindədirlər: «Ölkəmizdə ənənəvi marketinq artıq bir neçə ildir ki, mövcuddur. Onun bir qolu olan rəqəmsal marketinq (digital marketing) təzəcə aktuallaşmağa başlayıb. Rəqəmsal marketinq şirkətlərin daha az büdcə ilə daha çox auditoriyaya çıxmalarına kömək edir. Buna görə də şirkət sahibləri rəqəmsal marketinq mütəxəssislərini müəssisələrinə cəlb etmək üçün maksimum səy göstərirlər. Təəssüf ki, hazırda bəzi iş adamlarımız rəqəmsal marketinq dedikdə, yalnız SMM nəzərdə tuturlar ki, bu da onların səhv addımlar atmasına gətirib çıxarır. Rəqəmsal marketinqin əhatə dairəsi genişdir: SEO, SMM, Adwords, email marketing və s.

Rəqəmsal marketinqin əsas üstünlüklərindən biri odur ki, şirkətlər reklamlarını onun vasitəsilə birbaşa hədəf kütlələrinə çatdıra bilirlər ki, bu da onların büdcələrinə xeyli qənaət etməsinə gətirib çıxarır. Bundan əlavə, sırf büdcə və auditoriya üstünlüyünə görə rəqəmsal marketinqdən kiçik və orta biznes nümayəndələri rahat istifadə edə bilərlər. Bu gün sosial şəbəkələrə nəzər yetirsək, görərik ki, kiçik və orta sahibkarlar rəqəmsal marketinqdən yararlanmaqla öz bizneslərini uğurla idarə edə bilirlər».

Bir şeyi də nəzərdən qaçırmaq olmaz ki, rəqəmsal marketinq bu gün ölkəmizdə əsasən paytaxtda və nisbətən böyük şəhərlərdə daha fəaldır və ondan daha çox gənclər faydalanırlar. Onu da qeyd edək ki, rəqəmsal marketinq indi dövlət qurumlarının da diqqət mərkəzindədir: son vaxtlar İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi «Digital marketinq» mövzusunda təlimlər təşkil edir.

**F. İKRAMQIZI**

## MİLLİ MƏCLİSDƏ

# Azad iqtisadi zonanın fəaliyyəti qanunla tənzimlənəcək

Ötən həftə Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya, iqtisadi siyasət, sənaye və sahibkarlıq, hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında «Ələt azad iqtisadi zonası haqqında» qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Parlamentin mətbuat xidmətindən bildiriblər ki, birinci oxunuşdan sonra qanun layihəsinə edilmiş əlavə və dəyişikliklər barədə məlumat verən Milli Məclis sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov sənəddə redaktə xarakterli bəzi düzəlişlərin aparıldığını bildirib. Əsaslı dəyişikliklər azad zona səlahiyyətli qurumunun hüquq və vəzifələrinə, idarə edilməsinə, developerin hüquq və vəzifələrinə, azad zonada gömrük işi, sərhəd rejimi, əmək qaydaları və mübahisələrin həlli qurumlarının qərarlarının icrasına dair maddələrdə edilib. Azad zonada işçi dili barədə maddəyə Azərbaycan və ingilis dilləri ilə yanaşı, «zərurət yarandıqda başqa dillər də işlədilə bilər» ifadəsi əlavə olunub.

Qanun layihəsini yeni başlanğıc kimi qiymətləndirən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qeyd edib ki, layihə kifayət qədər mükəmməl hazırlanıb, dünya təcrübəsindəki ən qabaqcıl qanunlara əsaslanıb, ölkəmizdəki iqtisadi qurumların tövsiyələri sənəddə nəzərə alınıb. Bu qanun parlamentlə hökumət arasında qarşılıqlı əməkdaşlığın nümunəsidir.

Müzakirələrdə çıxış edən deputatlar qanun layihəsi barədə müsbət fikirlərini ifadə ediblər, qeyd və təkliflərini səsləndiriblər. İclasda deputatları maraqlandıran məqamlara aydınlıq gətirildikdən sonra «Ələt azad iqtisadi zonası haqqında» qanun layihəsi ikinci oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

## REGİONLARDAN VERGİ XƏBƏRLƏRİ

- Fevralın 17-də 9 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları Ucar rayonunda fəaliyyət göstərən sahibkarlarla görüş keçirib. Tədbirdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, o cümlədən elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadə qaydaları, ictimai iaşə, pərakəndə ticarət, topdansatış ticarət və istehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotunun aparılması qaydaları, vergi ödəyicilərinin qeydiyyatı, nağdsız hesablaşmaların genişləndirilməsi, əmək müqaviləsinin rəsmiləşdirilməsi və şəffaf vergi partnyorluğu barədə söhbət aparılıb.
- Fevralın 22-də 14 saylı ƏVİ-nin Tovuz rayonunda yerləşən Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyiciləri ilə keçirilən görüş zamanı «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» qaydaları, əmək müqaviləsinin bağlanması və sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi qəbzi barədə maarifləndirici söhbət aparılıb.
- Fevralın 23-də 3 saylı ƏVİ tərəfindən Quba şəhərindəki 2 nömrəli orta məktəbin şagirdləri ilə vergilər mövzusunda öyrədici məşğələ təşkil olunub.
- Fevralın 23-də 8 saylı ƏVİ-nin əməkdaşları Beyləqan şəhərində vergi ödəyiciləri ilə görüşüblər. Görüş zamanı tədbir iştirakçılarına vergi bəyannamələrinin vaxtında təqdim edilməsi xatırladılıb, qarşıya çıxan bir sıra məsələlərin həlli məqsədilə onlara onlayn kargüzarlıq vasitəsilə göndərilmiş məktublarla mütəmadi tanış olmalarının vacibliyi vurğulanıb.
- Fevralın 23-də Gəncə şəhərində 12 saylı Ərazi Vergilər Departamenti əməkdaşlarının vergi ödəyiciləri ilə görüşündə vergi borclarının alınması, operativ vergi tədbirləri, səyyar vergi yoxlamaları və şəffaf vergi partnyorluğu haqqında məruzələr dinlənilib.
- Fevralın 23-də Şamaxı şəhərində 4 saylı ƏVİ-nin əməkdaşları ilə bələdiyyə təmsilçilərinin görüşündə yerli idarəetmə orqanlarının vergi məsələləri ilə bağlı üzləşdikləri problemlər müzakirə edilib, metodiki əhəmiyyətli söhbət aparılıb.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin yanvar ayında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2017-ci ilin eyni dövrü ilə müqayisədə real ifadədə 1,3% artaraq, **737,5 milyon** manata çatıb.
- Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş üçüncü Dövlət Proqramının icrasını əhatə edən 2014-cü il yanvarın 1-dən bu il yanvarın 1-dək olan dövr ərzində ümumilikdə **721,2 min** olmaqla **530,4 min** daimi iş yerləri yaradılıb.
- İnvestisiya həcmi **895 mln.** ABŞ dolları təşkil edən «SOCAR Karbamid» zavodunda Danimarka və Niderland texnologiyası əsasında ildə **650-660 min** ton azot gübrəsi istehsal ediləcək.
- İlkin rəqəmlərə əsasən, 2017-ci ildə ölkəyə daxil olan pul baratları **1,2 milyard** ABŞ dolları təşkil edib.
- Bu ilin yanvar ayında Azərbaycanda ictimai iaşə dövriyyəsi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,5 faiz artaraq **97,5 milyon** manat olub.
- BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən Azərbaycanda torpaqların konsolidasiyası ilə bağlı pilot layihəyə **362 min** dollar həcmində vəsait ayrılıb.

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Məbləğin NKA-ya mədaxil edilməsi

***İctimai iaşə obyektində ödəniş POS-terminal vasitəsilə nağdsız qaydada aparıldıqda həmin məbləğ NKA-ya mədaxil edilməlidirmi?***

Vergi Məcəlləsinin 16-cı maddəsinin müddəalarına əsasən, nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək, o cümlədən nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq POS-terminalların quraşdırılmasını təmin etmək vergi ödəyicisinin vəzifələrinə aiddir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 4.3-cü bəndinə görə, ictimai iaşə obyektlərində xidmət göstərilməsi nəzarət-kassa aparatı və POS-terminallar tətbiq olunmaqla həyata keçirilir. Bu zaman xidmətlərin dəyəri nağd qaydada ödənildikdə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki, xidmətlərin dəyəri POS-terminal vasitəsilə ödənildikdə isə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki və POS-terminaldan çıxarış verilir.

**Qeyd olunanlara əsasən:** İctimai iaşə obyektlərində xidmətlərin haqqı POS-terminal vasitəsilə ödənildikdə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki ilə yanaşı, POS-terminaldan da çıxarış təqdim olunmalıdır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Əmək fəaliyyətinin rəsmiləşdirilməsi üçün yeni imkanlar yaradılır

İqtisadi islahatların istiqamətləri kimi qeyri-rəsmi məşğulluğun qarşısının alınması, əmək ehtiyatlarının keyfiyyətinin yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun sağlamlaşdırılması mühüm aktuallıq kəsb edir.

Vergilər Nazirliyi 2018-ci ildə vergi ödəyiciləri və sahibkarlarla birlikdə qeyri-leqal fəaliyyətdən leqal fəaliyyətə keçid üçün yeni səmərəli mexanizmlərin hazırlanmasını və tətbiqini planlaşdırır. Nazirlik qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması və bu sahədə işlərin koordinasiyalı təşkili məqsədilə müvafiq dövlət qurumları ilə əməkdaşlıq edir. «ASAN xidmət»in nəzdində fəaliyyət göstərən Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi əmək müqaviləsi olmadan vətəndaşları iş və xidmətlərin yerinə yetirilməsinə cəlb edən şəxslər barədə məlumatları Vergilər Nazirliyinə təqdim edir. Tikinti sahəsində işçilərin uçotunun aparılması məqsədilə obyektlərdə quraşdırılmış və real vaxt rejimində işləyən müşahidə kameraları vasitəsilə inşaat meydançalarında çalışan insanlar haqqında zəruri məlumatlar «ASAN xidmət»in Monitorinq Mərkəzinə ötürülür.

2017-ci il iyul ayının sonlarından fəaliyyətə başlayan Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinin məlumatına görə, 2018-ci il fevralın ortalarına qədər tikinti şirkətlərində 39 səyyar monitorinq həyata keçirilib, həmin dövr ərzində 1528 şəxs yoxlanılıb, onlardan 475 şəxsin əmək və ya xidməti (mülki) müqavilə olmadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi müəyyən olunub. Monitorinqlərin başlandığı gündən indiyədək Bakı şəhərində çoxmənzilli yaşayış binalarının inşası ilə məşğul olan tikinti şirkətləri tərəfindən 18452 sayda əmək müqaviləsi bağlanılıb.

### Qeyri-leqal məşğulluq qanunvericilikdəki boşluqlardan qidalanır

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri, Baş nazirin müavini Əli Əhmədov bildirib ki, bəzi iqtisadi fəaliyyət sahələrinə aid qanunlarda və normativ aktlarda mövcud olan boşluqlar işəgötürənlərin qanunsuz əməllər törətməsinə şərait yaradır. Əmək münasibətlərinin rəsmiləşdirilməməsi, işçilərin sayının gizlədilməsi hallarına daha çox tikinti sektorunda rast gəlinir. Mövcud tikinti qanunvericiliyi və normaları iş adamlarına imkan verir ki, işçilərinin sayını gizlədə bilsin. Xidmət müqavilələri, subpodratçılıq münasibətləri bu mənada sahibkarların işini asanlaşdıran formalardır. Maraqlıdır ki, həm xidmət müqaviləsi, həm də subpodratçılıq müvafiq normativ aktlarda nəzərdə tutulub. Bu istiqamətdə nəzarət tədbirləri ilə yanaşı, qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var. Hökuməti narahat edən digər problem «ikili mühasibat»ın mövcudluğudur. İşəgötürənlər mühasibat uçotu sahəsindəki boşluqlardan faydalanaraq, işçiyə verilən əməkhaqqının az hissəsini rəsmiləşdirir və bunun nəticəsində həm işəgötürən, həm də işçi vergi və məcburi dövlət sosial sığorta haqqını ödəməkdən yayınmış olur. Bu problem həm dövlətin iqtisadi və sosial maraqlarının, həm də işçilərin sosial hüquqlarının pozulması deməkdir.

### Qeyri-rəsmi əmək bazarında 3 milyona yaxın vətəndaş iştirak edir

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədovun sözlərinə görə, bu gün ölkəmizdə məşğul əhalinin sayı 4,6 milyon nəfərdir. Bunun təxminən 1,5 milyon nəfəri muzdlu işçilərdir və onlar əmək münasibətləri üzrə qanunvericiliyin tələblərinə uyğun şəkildə rəsmiləşdirilmiş hesab olunurlar. Kənd təsərrüfatında 1,6 milyon nəfər çalışır, bu insanlar fərdi sahibkarlıqla məşğul və ya özüməşğul əhaliyə aid edilir. Sonuncu kateqoriyadan olan məşğul əhalinin əmək münasibətlərində problemlər mövcuddur, onların əmək münasibətlərini tənzimləmək hələ də mümkün olmayıb. Həmin şəxslər ya əmək münasibətlərini müvafiq dövlət orqanlarında rəsmiləşdirməyiblər, ya da digər formalarda əmək münasibətlərinin rəsmiləşməsinə əngəl olan pozuntulara yol veriblər. Bu isə vətəndaşların əmək və sosial qanunvericiliyin tələblərindən kənarda qalması, qeyri-rəsmi məşğulluğun yaranması deməkdir.

> Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün müəssisələrin uçot sisteminin təkmilləşdirilməsi, hesablaşmaların tamamilə nağdsızlaşdırılması, beynəlxalq mühasibat sisteminin şərtləri tətbiq edilməlidir

S.Məmmədov qeyd edib ki, 3 ilə yaxındır ki, Azərbaycanda əmək müqavilələrinin elektron qeydiyyat sistemi fəaliyyət göstərir. Sistem əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasına, dəqiq və əhatəli uçotun aparılmasına, əmək bazarına çevik, obyektiv və səmərəli dövlət nəzarəti həyata keçirmək məqsədilə yaradılıb. İndiyədək bu sistemdən istifadə edənlərin sayı 5 milyondan çox olub. Amma bu göstərici daha yüksək olmalıdır. İşəgötürənlərin böyük qismi öz işçilərini rəsmiləşdirmir, onların əmək və sosial hüquqlarını pozur. İndi əmək müqaviləsi ilə işləyənlərin sayı 1,5 milyondur, 3 milyon məşğul insan isə mülki-hüquqi müqavilə ilə işlyəyir. Mülki-hüquqi müqavilə ilə işləyənlər isə qeyri-rəsmi əmək bazarının iştirakçıları hesab edilir. Hazırda ölkədə rəsmi olaraq iqtisadi məşğul əhali kimi göstərilən insanların 20-25 faizinin əmək sığortası var, əmək müqaviləsi və mülki-hüquqi müqaviləsi olmayan vətəndaşlar isə sığortalanmayıblar.

### «Kölgə iqtisadiyyatı»nın yaranmasına ikili mühasibat səbəb olur

İqtisadçı-ekspert Radil Fətullayevin sözlərinə görə, Azərbaycanda qeyri-rəsmi məşğulluq, ikili mühasibat kimi xarakterik pozuntu halları geniş yayılıb və bunlar «kölgə iqtisadiyyatı»nın yaranmasına səbəb olur: «Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün müəssisələrin uçot sisteminin təkmilləşdirilməsi, hesablaşmaların tamamilə nağdsızlaşdırılması, beynəlxalq mühasibat sisteminin şərtləri tətbiq edilməlidir. Vergilər Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin mühüm əhəmiyyət daşıdığını deyən iqtisadçının fikrincə, əmək müqavilələrinin elektronlaşdırılması, uçot sisteminin şəffaflaşdırılması, hesablaşmaların banklar və kartlar vasitəsilə həyata keçirilməsi «qara mühasibatın» ləğvi istiqamətində təsirli vasitələrdəndir. 2017-ci ildən başlayaraq nağdsız əməliyyatların genişləndirilməsi, nağd pul vəsaitlərinə limitin tətbiqi, dövlət müəssisələri ilə bərabər, özəl şirkətlərdə maaşların kart vasitəsilə verilməsi vergidən yayınmanın və ikili mühasibatın aradan qaldırılmasına təsir göstərir».

R.Fətullayev hesab edir ki, Azərbaycanın mühasibat və maliyyə sisteminin əsas tərkib hissəsi maliyyə hərəkətlərinin optimallaşdırılması, maliyyə nəzarəti, düzgün uçotun qurulmasıdır. Ölkəmizin milli mühasibat sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı təkmil hüquqi baza yaradılsa da, bəzi təşkilatlarda və təsərrüfat subyektlərində mühasibatın müasir meyarlara uyğunlaşdırılmasında problemlər qalmaqdadır və bu hallar aradan qaldırılmalıdır.

**Elbrus CƏFƏRLİ**

## Məcburi dövlət sosial sığorta haqları üzrə borclar silinir

«Məcburi dövlət sosial sığorta haqları üzrə borcların tənzimlənməsi haqqında» qanun layihəsi sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması tədbirlərinə dəstək məqsədi daşıyır, hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün əlverişli sığorta mühitinin stimullaşdırılmasına xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilmişdir ki, qanun layihəsi əlverişli sığorta mühitinin yaradılmasına, fərdi uçot sistemində nəzərə alınmayan, məhkəmə qərarlarının olmasına baxmayaraq, hazırkı tarixədək əsasən obyektiv səbəblərdən ödənilməyən məcburi dövlət sosial sığorta haqları üzrə borcların tənzimlənməsinə xidmət edir. Layihədə sığortaedənlərin Dövlət Sosial Müdafiə Fondunun uçot sistemində mövcud olan 2006-cı ilin 1 yanvar tarixinə yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığorta haqları üzrə borclarının tam məbləğdə silinməsi nəzərdə tutulub. Həmin borcları təhlil etdikdə, ötən 12 il ərzində borcu olan sığortaedənlərin heç də hamısının borclarını ödəməyə cəhd göstərmədiyi və ya belə bir imkana malik olmadıqları aydın olur. Bu sahədə məhkəmə qərarlarının da məsələyə kifayət qədər müsbət təsiri olmayıb. Sığortaedənlərin məcburi dövlət sosial sığorta haqları üzrə 1 yanvar 2006-cı il tarixə olan 199,6 milyon manat borcundan 1 yanvar 2018-ci il tarixinədək yalnız 50 faizi və ya 99,3 milyon manatı ödənilib. Beləliklə, sığortaedənlər üzrə 12 il ərzində ödənilməmiş məcburi dövlət sosial sığorta haqları üzrə borcun məbləği 100,2 milyon manat təşkil edir.

Qanun layihəsinin digər müddəası sığortaedənlərin Dövlət Sosial Müdafiə Fondunun uçot sistemində mövcud olan 2015-ci ilin 1 yanvar tarixinədək yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları üzrə borclarının tam məbləğdə silinməsini nəzərdə tutur. Sığortaedənlərin 1 yanvar 2018-ci il tarixə 81,8 milyon manat ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları üzrə borcları olub ki, bunun da 67,4 faizi və ya 55,1 milyon manatı 2015-ci ilə qədər yaranıb. Qanun layihəsində məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları üzrə 2015-ci ilin 1 yanvar tarixindən 2018-ci ilin 1 aprel tarixinədək yaranmış borcların da tənzimlənməsi əksini tapır. Sığortaedənlərin 2015-ci il yanvarın 1-dən 2018-ci ilin aprelin 1-dək yaranmış borclarının məbləği 26,7 milyon manat təşkil edir. Ümumilikdə «Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında» qanun layihəsi ilə sığortaedənlərin Dövlət Sosial Müdafiə Fondunun uçot sistemində mövcud olan məcburi dövlət sosial sığorta haqları və məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları üzrə borclarının 155,3 milyon manat hissəsinin silinməsi, 26,7 milyon manat hissəsinin isə tənzimlənməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, məcburi dövlət sosial sığorta haqlarının əsas məbləğinin silinməsi vətəndaşların pensiya hüquqlarına mənfi təsir etməyəcək. Nəticə etibarilə yeni qanun layihəsi ilə 373,7 min sığortaedənin, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan 217 min fiziki şəxsin məcburi dövlət sosial sığortası üzrə borclarının tənzimlənməsi nəzərdə tutulur. Bu isə borcu olan sığortaedənlərin maliyyə yükünün azalmasına, həmin sosial sığorta haqları üzrə cari borcların ödənişinin vaxtında və tam məbləğdə həyata keçirilməsinə imkan verəcək, gələcəkdə belə borcları yaratmamağa sövq edəcəkdir. Bu tədbir bütövlükdə əmək pensiyalarının əsas maliyyə mənbəyi olan məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların artırılmasına və əmək pensiyalarının vaxtında və tam məbləğdə maliyyələşdirilməsinə şərait yaradacaqdır.

**AYTƏN**

# Sahibkarlar üçün daha əlverişli biznes mühiti formalaşdırılır

«Azərbaycan: iqtisadi islahatlar icmalı»nın 2018-ci il üçün ilk buraxılışı işıq üzü görmüşdür. İcmalda biznes mühitinin yaxşılaşdırılması, sosial müdafiənin gücləndirilməsi, institutlaşmanın təkmilləşdirilməsi ilə bağlı məsələlər şərh olunmuşdur.

Qeyri-neft sektorunun davamlı və artan inkişafının təmin olunması, sahibkarlığın inkişafı üzrə şaxələndirilmiş, sabit və rəqabətədavamlı milli iqtisadi sistemin formalaşdırılması, maliyyə dayanıqlığının gücləndirilməsi və biznes mühitinin inkişafı məqsədilə son illərdə kompleks iqtisadi islahatlar həyata keçirilir. Bu tədbirlərdən biri də milli iqtisadiyyatın perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin təsdiq olunması, inklüziv inkişafın artırılması, maliyyə xidmətlərinin əlçatanlığının təmin olunması, kiçik və orta sahibkarların (KOS) maliyyə xidmətlərindən istifadə imkanlarının təkmilləşdirilməsi hədəflənmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Çaparlı bildirmişdir ki, KOS fəaliyyəti sahəsində əsaslı iqtisadi islahatlara ehtiyac var: «Azərbaycanda bankların KOS subyektlərinin kredit müraciətlərinin nəzərə alınması göstəricisinin aşağı səviyyədə olması, bu sahədə risklərin mövcudluğu, qiymətləndirmə aparmaq üçün zəruri məlumat bazasının yoxluğu, yüksək dərəcəli kredit faizləri ilə əlaqədar KOS subyektləri kredit almaqda çətinlik çəkirlər. KOS subyektlərinin müxtəlif məlumat mənbələrinə çıxış imkanlarının artırılması, biznes və qanunvericiliklə bağlı biliklərinin təkmilləşdirilməsi, məlumatlılığın təmin olunması və bu kimi mərkəzləşdirilmiş xidmətlərin göstərilməsi zərurəti yaranmışdır».

Qeyd olunan məsələlərin həlli, eləcə də nəzərdə tutulan prioritetlərin gerçəkləşdirilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən «İpoteka və Kredit Zəmanət Fondu»nun, eləcə də «Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi»nin yaradılması ilə bağlı müvafiq fərmanlar imzalanmışdır.

### Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Prezidentinin 2017-ci il 28 dekabr tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu ilə fəaliyyət göstərəcək Agentlik ölkədə iqtisadiyyatın diversifikasiyası və rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Hazırda bir sıra dövlət orqanları KOS subyektlərinə öz səlahiyyətlərinə müvafiq olaraq bir sıra xidmətlər göstərirlər. Beynəlxalq təcrübədə də müəyyən olunduğu kimi, bu xidmətlərin vahid mərkəzdən idarə olunması daha məqsədəuyğundur. Bu baxımdan, yeni yaradılmış Agentlik idarəetmənin daha da təkmilləşdirilməsi məqsədilə KOS-un inkişafına yardım edəcək, bu subyektlərə bir sıra xidmətlər göstərəcək, dövlət orqanlarının xidmətlərini əlaqələndirəcək və tənzimlənməni həyata keçirəcəkdir.

KOS subyektlərinin inkişafına birbaşa təsir edəcək islahatların ünvanlılığının təmin olunması üçün Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli «İri, orta və kiçik sahibkar meyarları» aşağıdakı cədvəllə müəyyənləşdirilmişdir:

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| Kiçik sahibkar | 25 nəfərədək | 200 min manatadək |
| Orta sahibkar | 25 nəfərdən 125 nəfərədək | 200 min manatdan 1.250 min manatadək |
| İri sahibkar | 125 nəfər və ondan yuxarı | 1 milyon 250 min manat və ondan yuxarı |

### «İpoteka və Kredit Zəmanət Fondu» Açıq Səhmdar Cəmiyyəti

«Azərbaycan İpoteka Fondu» Açıq Səhmdar Cəmiyyətinin və «Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu» Açıq Səhmdar Cəmiyyətinin birləşmə formasında yenidən təşkili yolu ilə «Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu» Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli fərmanına əsasən formalaşdırılmışdır.

Sahibkarlar tərəfindən manatla alınan kreditlərə zəmanət verilməsi və hesablanmış faizlərə görə subsidiya verilməsi qaydaları təsdiq olunmuşdur. Bu stimullaşdırıcı mexanizmdən istifadə etmək üçün borcalan kredit sifarişi ilə müvəkkil banka müraciət edir. Müvəkkil bank həm uyğunluq, həm də kredit təhlili aparır və bunların əsasında müvafiq qərar qəbul edir. Qərar müsbət olduqda bank müvafiq qayda ilə müəyyənləşdirilmiş sənədləri təqdim etməklə zəmanət üçün Fonda müraciət edir. İki yüz manat və ondan aşağı məbləğdə olan zəmanətin verilməsi üzrə 3 iş günü, iki yüz manatdan yuxarı olan məbləğdə isə 10 iş günü ərzində qərar qəbul edilir. Zəmanət almaq üçün Fond və müvəkkil banklar arasında çərçivə müqaviləsi bağlanır. Fondun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunması, maliyyə risklərinin bölünməsi, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsi, əks-dollarlaşmanın stimullaşdırılması və Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsinə nail olmaq üçün mühüm bir addımdır.

> Azərbaycanda bankların KOS subyektlərinin kredit müraciətlərinin nəzərə alınması göstəricisinin aşağı səviyyədə olması, bu sahədə risklərin mövcudluğu, qiymətləndirmə aparmaq üçün zəruri məlumat bazasının yoxluğu, yüksək dərəcəli kredit faizləri ilə əlaqədar KOS subyektləri kredit almaqda çətinlik çəkirlər

**F.İKRAMQIZI**

# «Made in Azerbaijan» brendinin şöhrəti günü-gündən artır

**Prezident İlham Əliyevin təsdiq etdiyi «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına çatdırılması başlıca hədəflərdən biri kimi göstərilib.**




Sənəddə mal və xidmətlərin idxalının ixrac ilə balanslaşdırılması iqtisadi müstəqillik və sabitlik üçün vacib şərt hesab olunur. Bunun üçün isə neft gəlirlərindən asılılığın azaldılmasına və qeyri-neft məhsullarının ixracının artırılmasına ehtiyac var.

Prezidentin «Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamına əsasən, bu sahədə qarşıya qoyulan əsas vəzifələrdən biri «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviq olunmasıdır. Bundan başqa, ölkə başçısının fərmanı ilə yerli məhsulların xarici bazarlara çıxarılması işinin təşkili, bazarların araşdırılması, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqinə çəkilən xərclərin dövlət hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi qaydası təsdiq edilib.

Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı qəbul edilmiş qərarlar ixracın stimullaşdırılmasına əhəmiyyətli təkan verir. İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, bu istiqamətdə dəstək mexanizmləri uğurla həyata keçirilir. 2017-ci il ərzində 10 ölkəyə 160-dan çox şirkətin iştirakı ilə ixrac missiyası təşkil edilib. Bundan başqa, xarici ölkələrdə 251-ə yaxın görüş keçirilib, 11 ölkə ilə əməkdaşlığa dair müqavilələr imzalanıb.

Keçən il qeyri-neft ixracı 24%, o cümlədən kənd təsərrüfatı məhsullarının ixracı 28%, sənaye məhsullarının ixracı 21%, xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı 7% artıb. İl ərzində Azərbaycan 3100 çeşiddə məhsul ixrac edib. 160-dan çox şirkətə ixrac üzrə fərdi qaydada xidmətlər göstərilib, ixrac təşviqi üçün 44 sahibkarlıq subyektinə 2,8 milyon manat dəyərində vəsait ödənilib.

Qeyd olunub ki, «Made in Azerbaijan» brendinin təbliği ilə bağlı Avropa İttifaqı ölkələri, MDB, ərəb ölkələri, eləcə də Çin, Yaponiya, Malayziya və s. dövlətlərin iri şəhərlərində ixrac missiyalarının təşkili nəzərdə tutulur. Təbliğ olunacaq məhsullara tələbat zonaları araşdırılır və həmin məhsulların təqdim ediləcəyi mağazalar şəbəkəsi ilə razılaşdırmalar, müqavilələr bağlanılır. İstanbul, Moskva, Frankfurt, Dubay və digər iri hava limanlarındakı «Duty free» mağazalarında, Rusiyanın iri şəhərlərindəki tanınmış ticarət şəbəkələrində «Made in Azerbaijan» rəflərinin yaradılması və Azərbaycana məxsus şərabların, mürəbbələrin, bal, xalça, kəlağayı və s. bu kimi məhsulların təqdim olunması istiqamətində tədbirlər həyata keçirilir.

Xarici ölkələrin bir sıra iri meqapolislərinin ictimai yerlərində və kütləvi informasiya vasitələrində, xüsusilə dünyanın tanınmış saytları, televiziya kanallarında «Made in Azerbaijan» brendlərinin təbliğinə yer ayrılacaq.

Uğurla fəaliyyət göstərən www.export.az portalında ixrac məhsuları və şirkətlər, ixraca verilən sertifikatlar, hədəf bazarlar və s. haqqında zəruri məlumatları əldə etmək mümkündür. Hazırda Çinin müxtəlif bölgələrində Azərbaycan şərablarına, eləcə də Birləşmiş Ərəb Əmirliklərində mineral sulara, meyvə şirələrinə, ət və süd məhsullarına, meyvə-tərəvəz, bal və s. mallara tələbat araşdırılır və yaxın gələcəkdə bu məhsulların ixracının genişləndirilməsi nəzərdə tutulur.

**İxracın təşviqi ilə bağlı dövlətin gördüyü təsirli tədbirlərdən biri də vergi güzəştləridir. Vergi Məcəlləsinin 165.1.3-cü maddəsinin müddəalarına görə, malların (o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində bu Məcəllənin 165.3-cü maddəsinə uyğun olaraq əlavə dəyər vergisinin qaytarılması qaydasında satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərindən əldə edilmiş istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların) ixracı ƏDV-yə sıfır (0) dərəcə ilə cəlb edilir.**
**Bununla yanaşı, ölkə Prezidentinin "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının ərazisində istehsal olunan və istehsal prosesində istifadə olunan yerli komponentlərin və Azərbaycan Respublikasının ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac edilən həmin məhsulların növündən asılı olaraq, Azərbaycan Respublikasının ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilməsi müəyyən edilmişdir. Həmin fərmanın ikinci hissəsinə uyğun olaraq, ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizini təşkil edir. Adıçəkilən fərman 2016-cı il martın 1-dən qüvvəyə minmişdir və 2020-ci il dekabrın 31-dək qüvvədədir.**

**Rəşad SADIQOV**

# «ABAD»a dəstək layihəsi uğurlu nəticələr verir

**Fevralın 16-da Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən «Məlumat təhlili və kiçik biznesin inkişafı təşəbbüsünü (ABAD) gücləndirmək üçün ASAN-a dəstək» layihəsinin nəticələrinin təqdimatı keçirilib. Layihənin rəhbəri Stiven O`mullan tədbiri giriş sözü ilə açaraq layihə haqqında iştirakçıları məlumatlandırıb.**

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kastutis Yankauskas yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Avropa İttifaqı arasında münasibətlər sahəsində mütəşəkkil və uğurlu iş aparıldığını vurğulayıb. Qonaq «ASAN xidmət»in müştəri məmnunluğunun əldə olunmasında xüsusi rolunu, «ABAD»ın orta və kiçik ailə təsərrüfatının inkişafına dəstəyini qeyd edib.

Azərbaycan Republikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov layihə çərçivəsində «ABAD»ın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində kifayət qədər işlər həyata keçirildiyini vurğulayıb. O, dəstəyə görə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinə, ekspertlərə təşəkkürünü bildirib və innovativ fəaliyyətin təmin edilməsində maraqlı tərəfdaşlığa hazır olduqlarını qeyd edib.

«ABAD»ın direktoru Rüfət Elçiyev qurumun yaradılması tarixi, məqsədləri və fəaliyyət istiqamətləri barədə qonaqlara məlumat verərək bildirib ki, ailə təsərrüfatlarının yaradılması və inkişaf etdirilməsi istiqamətində dəstək mexanizmləri formalaşdırılıb. Yaxın müddətdə satış kanallarının artırılması, yeni «ABAD» mərkəzlərinin açılması, kiçik və orta sahibkarlığın inkişafı üçün zəruri tədbirlərin təşkili nəzərdə tutulur.

«ABAD»ın İctimaiyyətlə əlaqələr şöbəsinin baş mütəxəssisi Qəmər Bağırovanın sözlərinə görə, layihə iki istiqamətdən ibarət olub: «Birinci istiqamət çərçivəsində Agentliyin, o cümlədən «ASAN Xidmət» mərkəzləri ilə əlaqədar toplanan dataların təhlili üzrə ekspert dəstəyi göstərilib, dataların strukturlaşdırılması və çeşidlənməsinə dair təkliflər verilib, eləcə də bu sahədəki yeni trendlərlə bağlı təlimlər keçirilib.

İkinci istiqamət isə «ABAD»ın fəaliyyətinin təkmilləşdirilməsinə həsr olunub. Bu çərçivədə layihə zamanı ekspertlər tərəfindən texniki-iqtisadi tədqiqatlar aparılıb və təlimlər keçilib. ABAD-ın məsul əməkdaşları İrlandiya Respublikasına ezam edilərək kiçik ailə təsərrüfatlarında süd və ət məhsullarının, o cümlədən əl işlərinin istehsalı və satışı, həmçinin bu şəxslərə göstərilən dəstək mexanizmləri üzrə İrlandiya təcrübəsini öyrənmişlər».

> Ailə təsərrüfatlarının yaradılması və inkişaf etdirilməsi istiqamətində dəstək mexanizmləri formalaşdırılıb

Layihənin nəticəsilə Səlahiyyətli Ərzaq Texnoloqlarının nəzarəti ilə «ABAD» üzvləri tərəfindən təhlükəsiz və məhsuldar təsərrüfatlı qida istehsalına, qida keyfiyyətinin ciddi şəkildə idarə edilməsinə başlanılıb. Nəzəri və tətbiqi təlimlərin töhfəsi xüsusən də «ABAD»ın fermer ailələrinə təqdim etdiyi monoblok-konteynerlərdə pendir istehsalı sahəsində müsbət nəticələr verib.

Əldə olunan nəticələr qida və sənətkarlıq məhsulları istehsalında «ABAD»ın milli brendə çevrilməsinə səbəb olacaq və gələcək fəaliyyəti üçün yol xəritəsinə çevriləcəkdir.

**F.İKRAMQIZI**

«ASAN xidmət»in tabeliyində «ABAD» (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs prezident İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə yaradılıb.

«ABAD» mərkəzləri ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələr həyata keçirir.

Mərkəzlər tərəfindən dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələri həyata keçirilir.

«ABAD» publik hüquqi şəxs tərəfindən Azərbaycanın 19 şəhər və rayonundan ümumilikdə sənətkarlıqla bağlı 143, kənd təsərrüfatı sahəsi üzrə isə 24 ailə seçilib. Bu günədək Masallıda 6, Balakəndə isə 12 ailəyə monoblok-konteyner şəklində zəruri istehsal avadanlıqları təqdim olunub. «ABAD»a qoşulan ailələrin məhsullarının sərgi-satışını həyata keçirmək üçün «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisi, Heydər Əliyev Beynəlxalq Hava Limanı, Bakı Dəmiryolu Vağzalı, Şamaxının Dəmirçi kəndində «ABAD» sərgi-satış mərkəzləri yaradılıb. Hazırda «ABAD» sərgi-satış mərkəzlərində 167 «ABAD» ailənin ümumilikdə 1900-dək çeşiddə əl işləri, 25 çeşiddə ərzaq məhsulları təqdim olunur.

Qubada açılan»ABAD» məktəbində isə xalçaçılıq, tətbiqi incəsənət və nəzəri kurslar olmaqla, üç istiqamət üzrə dərslər təşkil ediləcək.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Almaniya İqtisadiyyatının Şərq Komitəsinin saytında bu qurumun sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin nəticələri ilə bağlı «Bütün yollar Bakıya aparır» adlı məqalə təqdim olunub.

Azərbaycan Mərkəzi Bankının mütəxəssisləri tərəfindən paytaxtın ümumtəhsil müəssisələrində maliyyə savadlılığına dair silsilə seminarlar keçirilir.

Fevralın 27-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə kiçik sahibkarların məhsul və xidmətlərinin sərgi-satış yarmarkası fəaliyyətə başlayıb.

Banklararası Kart Mərkəzi (BKM) infrastrukturunun ən son PCI-DSS standartlarına cavab verdiyi təsdiqlənib.


## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Qiymətli kağızlar bazarında canlanma müşahidə olunur

Maliyyə Bazarlarına Nəzarət Palatası qiymətli kağızlar bazarının 2017-ci il üzrə icmal göstəricilərini açıqlayıb. İl ərzində bu sahədə artımla yanaşı, pozitiv kəmiyyət və keyfiyyət dəyişiklikləri də qeydə alınıb. Ötən il qiymətli kağızlar bazarı 2016-cı illə müqayisədə 12% artaraq 15,7 milyard manat təşkil edib, təkrar bazarı 47% yüksələrək 7,5 milyard manata çatıb. Ümumilikdə dövlət qiymətli kağızlar bazarı 7,3 dəfə, korporativ qiymətli kağızların təkrar bazarı isə 2,8 dəfə artıb. 2017-ci ildə 11,5 milyard manat və 4,1 milyard ABŞ dolları məbləğində qiymətli kağızların dövlət qeydiyyatı həyata keçirilib.

**Korporativ qiymətli kağızlar**

2017-ci ildə real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri nəticəsində korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əqdlərin məbləği 2,2 dəfə artaraq 2 milyard manatı ötüb. Xüsusilə banklar tərəfindən kapital tələblərinin təmin edilməsi məqsədilə nizamnamə kapitallarının artırılması səhm bazarının artımını şərtləndirən mühüm amil olub. Səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 3,3 dəfə artaraq 1,9 milyard manat təşkil edib.

Korporativ qiymətli kağızlar bazarının digər seqmenti olan korporativ istiqrazlar bazarı 2016-cı illə müqayisədə 79% azalaraq 1,6 milyard manat təşkil edib. İstiqrazların ilkin bazarı azalsa da, təkrar bazarda əqdlərin məbləğində artım müşahidə olunub. Yerli valyutada buraxılmış korporativ istiqrazların təkrar bazarında əməliyyatların həcmi 12,4 dəfə artaraq 917 milyon manat, xarici valyutada olan korporativ istiqrazların həcmi isə 4,2 dəfə artaraq 315 milyon manat təşkil edib.

**Dövlət qiymətli kağızları**

Maliyyə Nazirliyi tərəfindən daxildən borclanma siyasətinin həyata keçirilməsi, eləcə də Mərkəzi Bank tərəfindən milli valyutaya olan təzyiqlərin azaldılması məqsədilə not buraxılışları dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən edib: dövlət istiqrazları bazarı 48%, not bazarı isə 19,4 dəfə artıb.

Mərkəzi Bankın notlarının yerləşdirilməsi üzrə fond birjasında 50 hərrac keçirilib və nəticədə ilkin bazarda əqdlərin həcmi 2016-cı illə müqayisədə 19,3 dəfə artaraq 5,2 milyard manat olub. Hesabat dövründə dövlət istiqrazlarının yerləşdirilməsi üzrə fond birjasında 45 hərrac keçirilib və nəticədə ilkin bazarda əqdlərin həcmi 2016-cı illə müqayisədə 89% artaraq 795 milyon manat təşkil edib. Dövlət istiqrazlarının təkrar bazarı hesabat dövründə 69% azalaraq 45 milyon manat olub. Manatla yerləşdirilmiş qısamüddətli dövlət istiqrazları ilə bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 10,15%, ortamüddətli dövlət istiqrazları ilə bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 13,08% təşkil edib.




**Törəmə maliyyə alətləri bazarı**

Ötən il Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 5,5 milyard manat olan valyuta əsaslı və ümumi dəyəri 402 milyon manat təşkil edən əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilib. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 5,9 milyard manat olub və bazarda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 33,8% artım müşahidə edilib. Repo əməliyyatlarının ümumi məbləği 2016-cı illə müqayisədə 25 dəfə artaraq 51,5 milyon manat olub. Dövlət istiqrazları ilə ümumi məbləği 30,8 milyon manat olan 37 repo əməliyyatı keçirilib ki, bu da əvvəlki illə müqayisədə 15 dəfə çoxdur. Korporativ istiqrazlarla repo əməliyyatlarının məbləği 20,8 milyon manat təşkil edib.




**AYTƏN**

# Dünyada ilk dəfə olaraq Azərbaycanda...

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən onlayn vahid ixrac ərizəsi təqdim olunub. Dünyada ilk dəfə olaraq ölkəmizdə tətbiqinə başlanılacaq bu yeni xidmət Rəqəmsal Ticarət Qovşağı və «Azexport.az» portalı vasitəsilə həyata keçiriləcək. Bununla da sahibkarlar vahid ixrac ərizəsini onlayn qaydada doldurmaqla məhsullarını daha asan ixrac edə biləcəklər.

«Azexport.az» portalının rəhbəri Z.Qardaşov deyib ki, yeni elektron xidmət sahibkarların ixrac etdikləri məhsulları onlayn vahid ərizə əsasında müraciət etməklə ixrac üçün tələb olunan bütün icazə sənədlərinin əldə edilməsi, o cümlədən elektron gömrük bəyannaməsinin doldurulması və ixrac təşviqi məbləğinin alınmasını özündə birləşdirir. Vahid ixrac ərizəsinin doldurulması sistemi intellektual məntiqə əsaslanaraq qurulub, yəni istifadəçi özü haqqında minimal məlumatları daxil edir. Sahibkar bu məlumatları yalnız bir dəfə daxil etməklə (məsələn: malın adı və ixrac ölkəsi) digər zəruri məlumatlar, o cümlədən idxal ölkəsi üçün tələb olunan sənədlər sistem tərəfindən avtomatik müəyyənləşdirilir və ərizəçiyə təqdim edilir. Sonrakı mərhələdə ərizəçinin razılığı əsasında elektron vahid ixrac ərizəsi formalaşır və tələb olunan icazələrin alınması üçün sistem tərəfindən müəyyənləşdirilmiş iştirakçılara (dövlət qurumlarına) ünvanlanır.

«Yeni sistemin işə salınması ixrac prosedurlarının icrasında məmur-sahibkar təmasını minimuma endirəcək, sənədlərin icra müddətini bir neçə dəfə azaldacaq, bölgələrdəki sahibkarlar üçün icazələrin alınması proseduru daha rahat olacaq. Vahid ərizə konsepsiyası əsasında bütün ixrac icazələrinin əldə olunması xidməti hazırda dünyanın heç bir ölkəsində təqdim edilmir», - deyə Z.Qardaşov vurğulayıb.

Vahid ixrac ərizəsi ilə tanış olmaq üçün sahibkarlar https://dth.azexport.az/ ünvanına müraciət edə bilərlər. Qeyd edək ki, həm Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının, həm də «Azexport.az» portalının operatoru İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzidir.

**FƏXRİYYƏ**


## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ


## 2018-ci ilin mart ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin fevral ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Xüsusi notariuslar** 2018-ci ilin fevral ayı üzrə hesabladığı gəlir vergisini **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödəməlidirlər (cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).
- **Daşınmaz əmlakı** təqdim edin şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi **cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin fevral ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

Təqdim edilməli bəyannamələrin və vergilərin ödənilməsinin son müddəti Novruz bayramı ilə əlaqədar cari ilin mart ayının 20-dən 27-nə keçirilmişdir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin fevral və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin fevral və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi



## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# ABŞ Türkiyədən alınan polad üçün 53 faizlik rüsum tətbiq edə bilər

ABŞ-ın Ticarət Nazirliyinin Prezident Donald Trampa baxmaq üçün təqdim etdiyi məruzədə 12 dövlətdən, eləcə də Türkiyədən tədarük edilən polad üçün 53 faiz həcmində rüsum və idxal kvotası tətbiq olunması ilə bağlı təklif də var. Nazirlikdən bildirilmişdir ki, hələlik əruzəyə Prezident tərəfindən baxılır, onun məzmunu barədə yekun qərarlar verilməyib: «Prezident məruzənin təhlilini və tövsiyələri əsas götürərək müxtəlif fəaliyyətlərin bütöv bir silsiləsini həyata keçirmək haqqında, yaxud heç bir fəaliyyət göstərməmək barədə qərar qəbul edə bilər».

Sənəddə göstərilən siyahıya Türkiyə ilə yanaşı, Rusiya, Braziliya, Çin, Kosta-Rika, Misir, Hindistan, Malayziya, Cənubi Koreya, Cənubi Afrika Respublikası, Tailand və Vyetnam da daxil edilmişdir. Ticarət Nazirliyinin təklifinə əsasən, digər tədarükçü ölkələr üçün rüsum əvvəlki kimi 24 faiz səviyyəsində saxlanılacaq.

Bu xəbərlə paralel yayılmış başqa bir məlumatda isə bildirilir ki, Prezident D.Tramp ABŞ-ın avtomobil və motosiklet istehsalçılarının Hindistan bazarına çıxardıqları məhsullar üçün daha yüksək idxal rüsumu ödəməli olduqlarına qarşı öz narazılığını bildirmişdir. Onun fikrincə, Amerika bu vəziyyətdə «qarşılıqlı vergi» taktikasını işə salmalıdır: hazırda Hindistandan ABŞ-a gətirilən və ABŞ bazarında satılan motosikletlər üçün heç bir idxal rüsumu tətbiq edilmir.

# Varlıların vergi yükü artırılmalıdır

«Microsoft» şirkətinin qurucusu, multimilyarder Bill Qeyts CNN agentliyinə müsahibəsində bəyan etmişdir ki, digər varlı amerikalılar kimi, o da dövlət büdcəsinə hazırda olduğundan xeyli çox vergi ödəməlidir: «Mən indiyədək hamıdan çox - 10 milyard dollardan artıq vergi ödəmişəm. Hökumət mənim vəziyyətimdə olan insanlardan daha yüksək məbləğlər ödəməyi tələb etməlidir».

Qeyd edək ki, Bill Qeyts Prezident Donald Trampın imzaladığı vergi islahatını bəyənmir. Onun fikrincə, bu islahat proqressiv deyil, reqressiv vergitutma şkalası əmələ gətirəcək, varlı insanların həyatını yüngülləşdirəcək, orta sinfin həyatına isə heç bir təsir göstərməyəcək».

«Forbes»in yaydığı məlumatda isə bildirilmişdir ki, D.Trampın vergi islahatı ucbatından «Mikrosoft» şirkəti bu maliyyə ilinin ikinci rübündə keçən ilin analoji dövrü ilə müqayisədə 6,3 milyard dollar ziyana düşmüşdür. Göstərilən müddət ərzində şirkət vergi islahatı ilə əlaqədar 13,8 milyard dollar əlavə ödəniş etməli olmuş, dövriyyəsi isə 12 faiz artaraq 28,9 milyard dollara çatmışdır.

# Yeni vergi fırıldağı barədə xəbərdarlıq

Amerika Birləşmiş Ştatlarının Daxili Gəlirlər Xidməti ölkə vətəndaşlarına xəbərdarlıq səciyyəli məktubla müraciət etmişdir. Məktubda vergi fırıldağının hansı mexanizmlə həyata keçirildiyinə aydınlıq gətirilir. Oğrular vergi orqanlarından vergi ödəyicilərinin məlumatlarını əldə etmək üçün «fişinq» və digər sxemlərdən istifadə edirlər, sonra isə saxta vergi bəyannamələri tərtib etməklə orada vergi ödəyicilərinin həqiqi bank hesablarını göstərirlər. Daxili Gəlirlər Xidməti qaytarılmalı olan vergi məbləğlərini bu bank hesablarına köçürür. Bu baş verdikdən sonra fırıldaqçılar aldadılmış vergi ödəyiciləri ilə əlaqə yaradaraq özlərini vergi orqanı əməkdaşları kimi təqdim edirlər və onların hesabına pulun daxil olmasını hesablama zamanı buraxılmış səhv kimi qələmə verərək, onu qaytarmağı xahiş edirlər.

Bu, həyata keçirilməsi üçün aylarla vaxt lazım gələn mürəkkəb sxemdir: vergi bəyannaməsində vergi ödəyicisinin həqiqi məlumatlarının göstərildiyi saxta qeydi aşkara çıxarmaq isə daha çətindir. Bundan əlavə, son nəticədə fırıldaqçılar pulu vergi ödəyicilərindən alırlar ki, onları aldatmaq vergi əməkdaşlarını aldatmaqdan qat-qat asandır.

# Makulatura təhvili üçün gəlir vergisi

Rusiya Federasiyası Dövlət Dumasının Büdcə və vergilər üzrə komitəsi parlamentin aşağı palatasını kağız tullantısı təhvili üçün fiziki şəxsləri gəlir vergisindən azad etmək haqqında qanun layihəsini birinci oxunuşda qəbul etməyə çağırmışdır. Komitənin sədri Andrey Makarov bildirmişdir ki, «Dövlət Dumasının sədri Vyaçeslav Volodin qanun layihəsinin müzakirə olunmasını xahiş etmişdir, o belə hesab edir ki, bu mühüm təşəbbüsə hökumət etiraz etməyəcəkdir».

# Vergidən yayınmaya qarşı tədbirlər gözlənilən nəticəni vermədi

Böyük Britaniyanın vergi administrasiyasının yaydığı məlumatdan görünür ki, vergidən yayınmaya, eləcə də vergi gizlətmək üçün offşor zonalardan istifadəyə qarşı mübarizə tədbirləri dövlət xəzinəsinə 349 milyon funt sterliq (650 milyon dollar) vəsait cəlb edilməsinə imkan yaradacaq ki, bu da proqnozlaşdırılandan təxminən üç dəfə azdır.

Ölkə müxalifətinin bu faktı hakimiyyətin iqtisadiyyatı düzgün idarə edə bilməməsi ilə əlaqələndirməsinə cavab olaraq Dövlət Xəzinədarlığından bildirilmişdir: «Böyük Britaniya dünyada ən az vergi kəsiri olan ölkələrdən biridir və biz bütün tədbirləri görməkdə davam edirik ki, hər kəs ödəməli olduğu vergiləri ödəsin. Bunun nəticəsində 2010-cu ildən bəri xəzinəyə 175 milyard funt sterlinqdən (244,2 milyard dollar) artıq vəsait daxil olmuşdur, tədbirlər görülməsəydi, bu məbləğ ödənilməyəcəkdi».




# Enerjidən istifadə və vergi rejimləri

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) nəşr etdirdiyi son hesabatda dünyadakı enerjinin 80 faizindən istifadə edən 42 ölkənin enerjidən istifadə ilə bağlı vergi rejimləri təhlil edilmişdir. Hesabatda bu ölkələrin hökumətlərinə enerjidən istifadə olunarkən ətraf mühitə atılan tullantıların azaldılması üçün vergilərdən səmərəli istifadə etməyə çağırış yer alıb.

«Enerjidən istifadənin vergiyə cəlb olunması - 2018» adlanan hesabatda 2012-2015-ci illər arasında konkret ölkələrdə enerjinin yanacağın tipinə əsasən vergiyə cəlb edilməsi təsvir olunmuşdur. Bu təsvir göstərir ki, enerji ilə bağlı vergi rejimləri enerjidən istifadənin ətraf mühitə mənfi təsirləri ilə əlaqələndirilməsi düz mütənasib deyildir. Hazırkı vəziyyətdə vergilər enerjidən istifadənin azaldılması, bu sahədə səmərəliliyin yüksəldilməsi və ətraf mühitə daha az ziyan vuran enerji növlərinə keçilməsi baxımından çox cüzi stimullaşdırıcı rol oynayır. Tullantılarla bağlı ticarət sistemi isə ümumi mənzərəyə ciddi təsir göstərə bilmir.

«2012-2015-ci illər arasında mövcud olmuş vergiləri müqayisə edəndə inanılmaz nəticələr ortaya çıxır, - OECD-nin Baş katibi Angel Qurriya bildirmişdir. - Bir sıra ölkələrdə «çirkəndirən ödəyir» prinsipi tətbiq olunsa və ya bu prinsipin tətbiqinə cəhd edilsə belə, zərərli tullantıların həcminin azaldılması məqsədilə vergiqoymadan daha səmərəli istifadə istiqamətində irəliləyiş çox ləng və pərakəndə gedir. Bu sahədə hökumətlər daha çox və daha yaxşı iş aparmalıdırlar».

Hesabatda verilmiş göstəricilərə əsasən, 2015-ci ildə avtomobil nəqliyyatı ilə bağlı atılan tullantıların 81 faizi vergidən kənarda qalmışdır. Tullantıların 97 faizi üzrə vergi dərəcələri iqlim xərclərinin dəyərindən aşağı olmuşdur (karbon qazının hər tonu üçün 30 avro).

Vergi dərəcələrinin artımında yol sektoru nisbətən fərqlənməkdədir. İqlim xərclərindən artıq olan tullantılara görə tutulan verginin dərəcəsi bu sektor üzrə 2012-ci ildə 46 faiz olduğu halda, 2015-ci ildə 50 faizə çatmışdır. Maraqlıdır ki, bəzi ölkələrdə benzinlə müqayisədə dizel yanacağından tutulan verginin dərəcəsinin azaldıldığı müşahidə edilir. Bütün bunlarla birlikdə yanacağa müəyyənləşdirilmiş vergi yükü əvvəlki kimi bütün ölkələrdə kənar xərclərin qarşılanması üçün zəruri olan səviyyələrdən əsaslı şəkildə aşağıdır.

Hesabatda diqqət buna da yönəldilmişdir ki, zərərli tullantılarla zəngin olan və tədqiqat aparılmış 42 ölkədə karbon tullantılarının təxminən yarısını əhatə edən kömür vergiyə ya ən aşağı dərəcələrlə cəlb edilir, ya da demək olar ki, bütün ölkələrin hamısında faktiki göstəricilərə tam uyğun deyil.

Atmosferə atılan karbonun vergiyə cəlb olunması məsələləri ilə bağlı gərgin müzakirələrin aparıldığı bir şəraitdə bundan bəzi ölkələr nəticə çıxararaq müəyyən addımlar atsalar da, faktiki olaraq karbon tullantılarına tətbiq edilən vergilərin dərəcələri aşağıdır. Karbonun vergiyə cəlb olunması 2015-ci ildə 1 faizdən 6 faizə qaldırılmışdır, bununla belə, tullantılar üçün tətbiq olunan vergilər iqlim xərclərinin yalnız 0,3 faizini əks etdirir. Aksiz vergiləri ümumi vergi dərəcələrindən əhəmiyyətli şəkildə yüksəkdir.

# Macarıstan ərzaq malları üçün ƏDV-nin dərəcəsini azaldır

Hökumətin ictimaiyyət üçün açıqlamasında bildirilmişdir ki, müxtəlif ərzaq məhsullarına tətbiq olunan əlavə dəyər vergisini 2018-ci ildə də aşağı salmaq siyasəti davam etdiriləcək. Bundan bir qədər əvvəl Kənd Təsərrüfatı Nazirliyi elan etmişdi ki, digər ərzaq malları üçün ƏDV-nin dərəcəsinin aşağı salınması bu il yanvarın 1-dən donuz əti və balıq üçün 27 faizlik standart dərəcənin 5 faizə endirilməsinə uyğunlaşdırılacaqdır: «Hökumətin məqsədi budur ki, minimal ƏDV tətbiq etmək üçün ən mühüm ərzaq məhsullarını müəyyənləşdirsin və həmin məhsullardan tutulan ƏDV-nin azaldılması siyasətini 2018-ci ildə davam etdirsin».

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, son ƏDV artımı ailələrə il ərzində orta hesabla 35.000-40.000 forint (157 ABŞ dolları) vəsaitə qənaət etməyə imkan yaradacaq: «ƏDV-nin aşağı salınmasından qabağa düşən digər sektor isə kənd təsərrüfatı olacaq, çünki həm qida sənayesi, həm də kənd təsərrüfatı vergilərinin aşağı salınması nəticəsində daha çox imkanlar əldə edir, gizli iqtisadiyyatın meydanı daralır, insanlar daha çox mal alırlar və istehlakçı tələbi artır».




## krossvord

**Yuxarıdan aşağı:** 1.«O olmasın, bu olsun» filmində (1956) Gülnaz obrazını canlandıran aktrisanın adı; 2.Etil efirli kimyəvi birləşmə; 3.Afon adalarında yerləşən qədim yunan şəhəri; 4.Rusiya Federasiyasının Novosibirsk vilayətində çay; 5.İsveçrədə şəhər; 6.XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış türk yazıçının adı - «Firaqi-İraq», «Malta gecələri», «Füzuli» kimi əsərləri ilə məşhurdur; 7.İlin son ayı; 13.Görkəmli alman filosofu, neoklassik alman fəlsəfəsinin banisi, müasir Avropa fəlsəfə tarixinin ən nüfuzlu nümayəndələrindən biri; 15.Şəkildə, rəngli qravürada, mozaikada və s.-də rənglər, tonlar arasında əlaqə, münasibət, uyğunluq; 16.Düşüncə və duyğunun ağır formada pozulduğunu təyin edən psixiatriya termini; 17.Alman qotik və intibah rəssamı. Dunay rəsm məktəbinin nümayəndəsi; 18.Beyləqan rayonunun əvvəlki adı; 20.Yaxın Şərqdə dövlət; 21.Vergi tətbiq olunan sənaye sahəsi.

**Soldan sağa:** 1.Geniş yayılmış antibiotik; 8.İçərişəhərdə XIV əsrə aid tarixi memarlıq abidəsi olan restoran kimi fəaliyyət göstərən karvansaray; 9.XV-XVII əsrlərdə Rusiyada feodal və mülkədarların zülmündən ucqarlara (Don, Yaik, Zaporojye) qaçıb azad olmuş təhkimli kəndlilərə, nökərlərə və şəhər yoxsullarına verilmiş ad; 10.Ədəbiyyat termini: hər beytin axırında qafiyədən sonra təkrar edilən söz və ya söz birləşməsi; 11.Təyyarə ilə uçmaqdan qorxan şəxs; 12.Antarktidada ən uzun çay, həmçinin mineral adı; 14.Vətəni Amerika olan qəhvə içkisi; 19.Həndəsi fiqur; 21.İsa peyğəmbərin doğum günü ilə bağlı qeyd edilən bayram; 22.1515-1920-ci illər arasında Orta Asiyada mövcud olmuş xanlıq; 23.Ölkəmizdə becərilən sitrus meyvələrindən biri; 24.Niderlandda çay; 25.Feilin məsdər forması.



*«O olmasın, bu olsun» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Slaman *(Teodor)*; 2.Avtoqol; 3.İrbis; 4.İnsula; 5.Ramazan; 6.Neman; 7.Kayman; 13.Avro; 15.Rosberq *(Niko)*; 16.Smirna; 17.Stupor; 18.Santim; 20.Yaşma; 21.Maori. **Soldan sağa:** 1.Stabilitron; 8.Avtobus; 9.Mamay (xan); 10.Arqos; 11.Lozanna; 12.Eldar *(Quliyev)*; 14.İndri; 19.Mayorat; 21.Maska; 22.Ruşa; 23.Opponent; 24.Ada; 25.Birminqem.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# XXIII Qış Olimpiya Oyunlarına yekun vuruldu

**Fevralın 25-də «Pxençan-2018» Qış Olimpiya Oyunlarının təntənəli bağlanış mərasimi olub. 35 min azarkeş tutumu olan Pxençan Olimpiya Stadionunda keçirilən mərasimdə əvvəlcə Koreya Respublikanın bayrağı qaldırılıb və dövlət himni səsləndirilib. Dünya musiqisi ilə Koreya milli musiqi alətlərinin vəhdətindən ibarət kompazisiyanın təqdimatından sonra «Pxençan-2018»də iştirak edən ölkələrin bayraqları stadiona gətirilib.**

İdmançıların paradından sonra Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax bayrağı 2022-ci ildə Qış Olimpiya Oyunlarına ev sahibliyi edəcək Pekin şəhərinin meri Jininq Çenə təhvil verib. «Pekin-2022» Qış Olimpiya Oyunları ilə bağlı təqdimat nümayiş edilib. Olimpiya məşəli söndürüldükdən sonra xüsusi lazer effektləri ilə şou nümayiş olunub, DJ-lərin ifasında konsert proqramı təşkil olunub. Bağlanış mərasiminə möhtəşəm atəşfəşanlıqla yekun vurulub.

Qeyd edək ki, Norveç millisi «Pxençan-2018» Qış Olimpiya Oyunlarının medal sıralamasında birinci olub. Bu ölkənin hesabında 14 qızıl, 14 gümüş və 11 bürünc medal var. Almaniya (14-10-7) ikinci, Kanada (11-8-10) üçüncü, ABŞ (9-8-6) dördüncü, Niderland (8-6-6) isə beşinci pillədə qərarlaşıb.

Ümumilikdə 30 ölkənin idmançıları medalçılar arasında yer alıblar. «Pxençan-2018» Olimpiya Oyunlarında 92 ölkədən 2952 idmançı iştirak edib. Bu, indiyə qədər Qış olimpiadalarında iştirakçıların sayına görə rekord göstəricidir. Oyunlara ən çox idmançı ilə qatılan ölkə Amerika Birləşmiş Ştatları (242 atlet) olub. Qış Olimpiadasında yarışlar 13 idman obyektində keçirilib. Atletlər 7 idman növündə 102 dəst medal uğrunda yarışıblar. Medalların birinin çəkisi 586 qramdan artıqdır. Bu, Qış Olimpiya Oyunları tarixində çəkisinə görə ən ağır mükafatdır. XXIII Qış Olimpiya Oyunları 6 yeni ölkənin debütü ilə də əlamətdar olub. Ekvador, Eritreya, Kosovo, Malayziya, Nigeriya və Sinqapur tarixində ilk dəfə Qış Olimpiya Oyunlarında iştirak ediblər.



# Mötəbər yarışa geri sayım başladı

**İyunun 5-9-da Bakıda velosiped idmanının BMX növü üzrə keçiriləcək dünya çempionatının başlanmasına 100 gün qalır. Yarışa hazırlıqla bağlı görülən işlər həlledici mərhələyə qədəm qoyub.**




1970-ci illərdə ABŞ-da yaranan bu idman növü qısa müddətdə populyarlaşıb və 1981-ci ildə Beynəlxalq BMX Federasiyası təsis edilib. Bir ildən sonra isə bu növ üzrə ilk dünya çempionatı keçirilib. 1993-cü ildə Beynəlxalq BMX Federasiyası Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) tərkibinə daxil olub. 2003-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin konqresində BMX idman növünün Yay Olimpiya Oyunlarının proqramına daxil edilməsi barədə qərar qəbul edilib. 2008-ci il Pekin Yay Olimpiya Oyunlarından etibarən BMX dördilliyin zirvə yarışının tamhüquqlu üzvünə çevrilib.

Azərbaycanda BMX idman növü ilə ilk əyani tanışlıq «Bakı-2015» ilk Avropa Oyunları zamanı olub. Ölkəmizin digər növlər kimi, velosiped yarışlarını da ən yüksək səviyyədə təşkil etdiyini görən Beynəlxalq Velosipedçilər İttifaqı 2018-ci il dünya çempionatının təşkilini Azərbaycan Velosiped İdmanı Federasiyasına etibar edib. 2015-ci ilin əvvəlində Bakıda ən müasir tələblərə cavab verən BMX stadionu inşa edilsə də, 2016-cı ildə UCI müvafiq qaydaları və stadionların ölçülərini dəyişdiyindən Bakı stadionu yenidən qurulub: trekin uzunluğu və eni, maneələrin sayı və döngələrin hündürlüyü artırılıb. Bu gün UCI-ın yeni standartlarına tam cavab verən yeganə stadion məhz Bakı trekidir.

Mötəbər yarışın keçiriləcəyi BMX trekində aparılmış yenidənqurma işlərindən sonra ötən ilin oktyabrında burada təşkil olunan Dünya Sınaq Yarışı Beynəlxalq Velosipedçilər İttifaqının rəsmi nümayəndələri tərəfindən yüksək qiymətləndirilib və arenanın dünya çempionatını qəbul etməyə hazır olduğu rəsmi məktubla təsdiqlənib. Bu günədək 30-dan çox ölkə çempionatda iştirakla bağlı müraciət edib.




# Güləşçilərimiz Kiyevdə doqquz qızıl medal qazanıblar

Kiyevdə Ukraynanın görkəmli güləşçi və məşqçilərinin xatirəsinə sərbəst, yunan-Roma və qadın güləşi üzrə XXII beynəlxalq turnir başa çatıb. 37 ölkədən 500-dək idmançının iştirak etdiyi turnirdə yığma komandamızın üzvləri 9 qızıl, 6 gümüş və 4 bürünc medal qazanıblar.

Yunan-Roma güləşi üzrə Eldəniz Əzizli, Murad Məmmədov, Taleh Məmmədov və Rafiq Hüseynov bütün rəqiblərindən üstün olaraq turnirin qızıl medalını qazanıblar. İslam Abbasov və Sabah Şəriəti isə yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətləniblər. Elvin Mürsəliyev və Orxan Nuriyev turnirin bürünc medalına sahib olublar.

Sərbəst güləşçilərimiz 4 qızıl, 3 gümüş və 1 bürünc medal əldə ediblər. Georgi Edişeraşvili, Əhmədnəbi Qvarzatilov, Şərif Şərifov və Nurməhəmməd Hacıyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Hacı Əliyev, Murtuz Müslümov (70 kq) və Cəbrayıl Həsənov turnirin gümüş medalına sahib olublar. Bürünc medalı isə yığmamıza Əfqan Xaşalov qazandırıb.

Qadın güləşçilərimiz turnirdə 1 qızıl, 1 gümüş və 1 bürünc medala layiq görülüblər. Tatyana Omelçenko bütün rəqiblərini üstələyərək turnirin qızıl medalını qazanıb. İrina Netreba gümüş, Alyona Kolesnik isə bürünc medala layiq görülüb.

## mozaika

robototexnika

### Alimin robot «əkiztayı»

Yaponiyalı alim Hiroşi İşiquro ezamiyyə səfərləri zamanı mühazirələrdə özünü əvəz edəcək robot «əkiztayını» yaradıb. Robot xarici görünüşünə görə alimdən qətiyyən fərqlənmir.

«Geminoid» adlanan robot hissləri sensorlarla idarə olunan mimikalarla ifadə edir və süni intellekt vasitəsilə danışır. Qurğunun təkmilləşdirilməsinə ehtiyac olmasına baxmayaraq, artıq robot tələbələrlə məşğələlərin aparılmasına kömək edir. Müəllif auditoriya ilə robot oxşarına quraşdırılmış videokamera və dinamiklərin köməyi ilə işləyir.

«Robotu yaratmaqda məqsədim onun məni konkret yerdə əvəz edə bilməsinə nail olmaq idi. Robotu hazırlayarkən ən çətin iş yumşaq və elastik dərini yaratmaq olub. Bu, obrazı orijinala yaxınlaşdırmağa imkan verir. Elektron sxem daim təkmilləşdiriləcək, zaman ötdükcə «Geminoid» robotunun xarici görünüşünü dəyişmək lazım olacaq, çünki o, insandan fərqli olaraq, qocalmır», - deyə alim bildirib.



cəmiyyət

### Kompüter istifadəçinin cinsini tanıya bilir

Yunanıstanın Demokrit Universitetindən İoannis Simperidis və onun həmkarları 75 könüllü (36 kişi və 39 qadın) üzərində araşdırmalar aparıblar. Onların kompüterlərinə 10 ay ərzində klavişə hər toxunmanı fiksasiya edən, xüsusi olaraq hazırlanmış «IRecU» proqram-keyloqqerləri quraşdırılıb.

Toplanmış fayllar «ISqueezeU» statistik proqramı ilə təhlil edilib. Proqram mətnin yığılmasının müxtəlif xüsusiyyətləri ilə insanın cinsinin mümkün korrelyasiyalarını (iki və daha artıq təsadüfi dəyişənlər arasındakı statistik əlaqə) qiymətləndirməyə imkan verib. Düymələrin sıxılma vaxtı və hərflər arasında fasilələr təhlil edilib. Məlum olub ki, bu xarakteristikalardan bəziləri, həqiqətən də, cins ilə korrelyasiya edilir.

Xarakteristikalar və onlarla bağlı olan çəki əmsalları 78 faizdən çox dəqiqliklə istifadəçinin cinsiyyəti təyin edə bilən beş müxtəlif neyroşəbəkənin öyrənilməsi üçün istifadə olunub.

Müəlliflər hesab edirlər ki, istifadəçinin cinsinin təyini analizi polis araşdırmaları və ya reklam kampaniyalarının hədəf planlaşdırılması üçün alət ola bilər.

maraqlı

### 70 mərtəbəli taxta göydələn

Yaponiyanın «Şumitomo Forestry» şirkəti Tokioda taxtadan 350 metr hündürlükdə göydələn inşa etmək planını açıqlayıb. Plana əsasən, 70 mərtəbəli göydələn 2041-ci ildə paytaxtın Marunoçi işgüzar rayonunda inşa ediləcək.

Binanın konstruksiyasının zəlzələyə qarşı müqavimətini artırmaq üçün poladdan da istifadə olunması nəzərdə tutulur. Buna qədər Yaponiyada taxtadan inşa edilən ən hündür tikili yeddimərtəbəli olub.

455 min kvadratmetr sahəni əhatə edəcək yeni göydələn çoxfunksiyalı olacaq. Burada mağazalar, ofislər, mehmanxana və mənzillər yerləşəcək. Tikilinin ümumi dəyərinin 5,5 milyard dollar təşkil edəcəyi bildirilir. Göydələnin inşası üçün ümumilikdə 185 min kubmetr taxta sərf olunacağı gözlənilir. Adətən, «Şumitomo Forestry» şirkəti bu qədər taxta materialı 8 min adi binaya sərf edir.

Hazırda şirkət tikintidə istifadə etmək üçün üç saat ərzində odadavamlı ağac növünü araşdırır. Bunun yanaşı, göydələndə oda qarşı davamlı bitkilərin yerləşdirilməsi də nəzərdə tutulur.



mədəniyyət

### Rənglərin Şərq-Qərb interaksiyası

Vyana şəhərində fəaliyyət göstərən ALMA qalereyasında «Culture Meeting Point» mədəniyyət qurumunun təşkilatçılığı ilə istedadlı gənc rəssam, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunu Nərgiz Quliyevanın əsərlərindən ibarət «Rənglərin Şərq-Qərb interaksiyası» adlı sərginin açılışı olub.

Açılışda çıxış edən «Culture Meeting Point» təşkilatının musiqi üzrə rəhbəri, incəsənət üzrə fəlsəfə doktoru, musiqişünas Fərəh Tahirova N.Quliyevanın yaradıcılığı haqqında tədbir iştirakçılarına məlumat verib. Gənc rəssamın sənət fəaliyyəti, mükafatları və dünyanın müxtəlif ölkələrində sərgilərindən bəhs edən F.Tahirova Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Almaniyada təşkil edilmiş Azərbaycan mədəniyyət günləri çərçivəsində N.Quliyevanın əsərlərinin Berlin, Ştutqart, Hamburq, Dortmund, Münxen, Köln və digər şəhərlərdə uğurla sərgiləndiyini bildirib. Eyni zamanda, rəssamın əsərlərinin Parisin məşhur Luvr muzeyində də nümayiş olunduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, bu sərgi N.Quliyevanın Avstriyada sayca ikinci sərgisidir, ötən ilin payızında Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində rəssamın əsərləri nümayiş olunub.




Sərgidə təqdim olunan əsərlər, xüsusilə Abşeron mövzusu, həyatın mənası və insanın həyatdakı məqsəd və amalları haqqında fəlsəfi düşüncələr, eləcə də Azərbaycanın milli atributlarının, qədim xalça, metal və digər əl işlərinin əks olunduğu tablolar qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Sərginin açılışından sonra Vyana Musiqi və Səhnə Sənətləri Universiteti və Lints Anton Brukner Universitetinin tələbəsi Abuzər Manafzadə konsert proqramı ilə çıxış edib. O, sərgi mövzusuna uyğun olaraq, tanınmış rus bəstəkarı Modest Musorqskinin «Bir sərginin rəsmləri» əsərini ifa edib.



Sərgidə Azərbaycan səfirliyinin əməkdaşları, Vyana İncəsənət Akademiyasının müəllim və tələbələri, beynəlxalq təşkilatların təmsilçiləri, incəsənət həvəskarları və tələbələr iştirak ediblər.

qlobal problem

### Dünya okeanı yatağından çıxa bilər

Alimlər son 25 ildə dəniz səviyyəsində qlobal artımın sürətləndiyi barədə xəbərdarlıq ediblər. Bildirilib ki, bu, sahilyanı ərazilər üçün böyük problemlərə səbəb ola bilər.

ABŞ-ın Kolorado, Cənubi Florida və Old Dominion universitetlərinin tədqiqatçıları 1992-ci ildən etibarən aparılan kosmik araşdırmaların nəticələrini açıqlayıblar. Tədqiqatlara görə, qlobal dəniz səviyyəsi 1990-cı illərdə ortalama 2,5 millimetr yüksəlirdisə, hazırda bu rəqəm 3,4 millimetrə bərabərdir. Alimlər artım sürətinin belə davam edəcəyi halda, əsrin sonunda ortalama dəniz səviyyəsinin bugünkündən 65 santimetr çox olacağını bildiriblər.

Tədqiqat zamanı qlobal istiləşmənin artım tempinə iki şəkildə təsir etdiyi vurğulanıb. Bir tərəfdən atmosferdə yağıntıların və dəniz suyunun buxarlanması, digər tərəfdən isə Antarktida və Qrenlandiyadakı nəhəng buz kütlələrinin sürətlə əriməsi suyun səviyyəsini artırır.

**Müdriklər deyib ki...**

***«Hər cür dəqiqliyin anası olan təcrübədən doğulmayan bilik barsız-bəhərsiz və səhvlərlə dolu olur».***

***Leonardo da Vinçi (1452-1519)***

